QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 059 (5779) **4 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

## Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış olub

Səh 2




Mehriban Əliyeva: "Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir"



3

Elmar Məmmədyarov Moskvada MDB-nin XİN Şurasının iclasında iştirak edəcək



5

Azərbaycanda həyata keçirilən gənclər siyasəti uğurlu nəticələr verməkdədir



6

Bəhruz Quliyev: Azərbaycan xalqı öz Ali Baş Komandanına, Ordusuna güvənir



10

Asiya İnkişaf Bankı: Azərbaycanda iqtisadi artım sürətlənəcək



9

Ermənistan milyardlarla dollar məbləğində ianələr itirir



13

14

"Siyasi mühacir" əqidə yoldaşları tərəfindən ifşa olunur



10

Ərdoğan gələn həftə Rusiyaya gedir



16

Useyn Bolt yenidən futbola qayıdıb



# Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış olub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bakı Dəmir Yolu Vağzalında əvvəlcə Qəbələ dəmir yolu stansiyasının binasının eskiz layihəsinə baxdı.

Sonra Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış oldu.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov bildirdi ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi ilə İsveçrənin "Stadler Rail Group" şirkəti tərəfindən istehsal olunan 10 vaqondan ibarət sərnişin qatarı Türkiyə və Gürcüstandan keçməklə martın 29-da Bakıya çatıb. Amma bundan əvvəl qatar Axalkalakidə quraşdırılmış xüsusi qurğuda test rejimində sınaqdan keçirilib. Qatarların Türkiyədə hərəkəti üçün Gürcüstan-Türkiyə-Gürcüstan sərhəd-keçid məntəqəsində vaqonda təkər cütlərinin eninə bazasının avtomatik olaraq 1520 millimetrdən 1435 millimetrə və əksinə dəyişdirilməsini nəzərdə tutan yeni qurğu quraşdırılıb. Qatarda doqquz sərnişin vaqonu və bir restoran var. Vaqonlar "standart", "komfort", "biznes" və "restoran" olmaqla dörd kateqoriyada istehsal edilib. Kateqoriyasından asılı olaraq, vaqonlar 10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub. Saatda 160 kilometr sürətlə hərəkət etmək imkanına malik qatardakı arabacıqlar pnevmatik asılqanla təmin edilib ki, bu da döngələrdə vaqonun tarazlığını tənzimləyir. Bundan başqa, hər bir vaqon dizel generatoru avadanlığı ilə təmin olunub. Bu da lokomotivdə cərəyan olmadıqda vaqonu və ondakı bütün elektrik enerjisi istifadəçilərini 24 saat fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars marşrutu ilə sərnişin daşınmasının təşkili bu ilə planlaşdırılıb. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İsveçrənin "Stadler Rail Group" şirkəti arasında imzalanan müqaviləyə əsasən ikinci mərhələdə daha 10 vaqonun gətirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, müstəqillik tariximizin möhtəşəm layihələrindən olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti 2017-ci ilin oktyabr ayında Beynəlxalq Dəniz Ticarət Limanında keçirilən təntənəli mərasimlə istifadəyə verilib. Asiya ilə Avropanı birləşdirən və Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində reallığa çevrilib. Qonşu Türkiyə və Gürcüstanla sıx əməkdaşlığın nəticəsi olan Bakı-Tbilisi-Qars layihəsi ölkələrimiz arasındakı əlaqələrin strateji təzahürünü də nümayiş etdirir. Bu yolla artıq yüklərin daşınması uğurla həyata keçirilir. Bununla da çox mühüm transmilli neft-qaz kəmərlərinə malik Azərbaycan bu strateji layihənin reallaşması ilə özünün nəinki regionda, bütünlükdə Avrasiya qitəsindəki əhəmiyyətini artırıb. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilib və regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa böyük töhfədir.



## Rəsmi xronika

Prezident İlham Əliyev məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2 nömrəli Doğum Evinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Heydər Əsədovun Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Bakı-Şamaxı-Yevlax (12 km)-Xocəsən avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Slovakiya Respublikasının yeni seçilmiş Prezidenti Zuzana Çaputovaya təbrik məktubu ünvanlayıb. Məktubda deyilir: "Hörmətli xanım Çaputova, Slovakiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Slovakiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Slovakiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm".

# Mehriban Əliyeva: "Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir"

*Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüş keçirilib*



Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə aprelin 3-də görüş keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən görüşdə əvvəlcə Aprel döyüşləri şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov tədbirdə çıxış edərək bildirib ki, üç il bundan əvvəl Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinə başlayıb. Artıq bu layihənin ikinci mərhələsi yekunlaşıb. Ötən 3 il ərzində 100-dən çox zabit və əsgər yüksək texnologiyalı protezlərlə təmin olunub. Bugünkü görüşün üç il bundan əvvəlki Aprel döyüşlərinə, ordumuzun qələbə gününə təsadüf etdiyini deyən Anar Ələkbərov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın görüş iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə deyilir: "Azərbaycanın əzəli tarixi torpağı olan Dağlıq Qarabağ və digər yeddi rayonumuz artıq 25 ildən çoxdur Ermənistan respublikası tərəfindən işğal olunub. Bu hərbi təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətində yaşayır. 1994-cü ildə atəşkəs razılığının əldə olunmasına baxmayaraq, Ermənistan Azərbaycana qarşı dəfələrlə silahlı təxribat törətmiş, lakin xalqımızın sizin kimi igid oğullarının qəhrəmanlığı və şücaəti sayəsində Azərbaycan Ordusu bu təxribatların qarşısını alaraq düşmənə hər zaman layiqli cavab vermişdir.

*"Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq"*



Siz Vətən yolunda qəhrəmanlıq göstərərək Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, ölkəmizin daha qüdrətli, daha möhkəm olması yolunda sağlamlığınızı itirmisiniz. Bununla da öz ölkənizə, xalqınıza, Prezident və Ali Baş Komandanınıza sadiqlik nümayiş etdirmisiniz. Azərbaycan dövləti sizin fəaliyyətinizi yüksək qiymətləndirir, sizin kimi mərd və cəsarətli oğullarının olması ilə fəxr edir. Sizin apardığınız mübarizə haqq mübarizəsidir. Azərbaycan dövləti münaqişənin ədalətli, beynəlxalq hüququn prinsipləri və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması üçün əlindən gələni əsirgəmir.

2016-cı ildə baş vermiş Aprel döyüşlərindən 3 il ötür. Bu döyüşlər bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan dövləti işğalla heç zaman barışmayacaq. Aprel döyüşləri Azərbaycan xalqının vətənpərvərliyini, həmrəyliyini və yenilməz iradəsini bir daha nümayiş etdirdi. Məhz Aprel döyüşlərinin cəsarətli iştirakçılarının qəhrəmanlığı nəticəsində bu gün Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər zamanı bizim itkilərimiz oldu. Bu itkilər bizim hamımız, hər bir azərbaycanlı üçün böyük dərddir. Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərərək ömürlərini Vətən yolunda qurban verdilər, şəhid oldular. Öz həyatını Vətən naminə qurban vermiş mərd oğullarımızın xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır.

Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin sağlamlığınızın bərpası və normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti bütün lazımi addımları atır və bundan sonra da atacaqdır. Mən sizin hər birinizə cansağlığı və uğurlar arzulayıram".

Görüşdə polkovnik-leytenant Eldəniz Sadıqov çıxış edərək deyib ki, 3 il bundan əvvəl baş vermiş Aprel döyüşlərində Azərbaycan Ordusu düşmənə və bütün dünyaya öz gücünü sübut etdi. 2016-cı ilin aprel ayında düşmənin kəşfiyyat və diversiya qruplarının hücumunun qarşısı Azərbaycan Ordusu tərəfindən alındı. Düşmənin müdafiə xətti tez bir zamanda yarılaraq mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Bu, bir daha sübut etdi ki, bizim güclü və nizami ordumuz var. Biz öz torpaqlarımızı geri qaytaracağıq. Azərbaycanın Ali Baş Komandanı ordumuza yüksək qayğı göstərir, hərbçilərin məişət şəraitinin yaxşılaşdırılmasına, müasir hərbi hissələrin tikilməsinə, zabitlərin yeni evlərlə təmin olunmasına böyük diqqət ayırır. "Aprel döyüşlərində mən və mənim silahdaşlarım bilmirdik ki, şəhid olacağıq və ya sağ qalacağıq. Biz o haqda heç düşünmürdük. Çünki inanırdıq ki, biz şəhid olsaq da, Ali Baş Komandan, Birinci vitse-prezidentimiz, dövlətimiz və xalqımız bizim ailələrimizin yanında olacaq", - deyə Eldəniz Sadıqov bildirib.

**Ardı Səh. 4**

# Mehriban Əliyeva: “Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir”

*Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüş keçirilib*







**Əvvəli-Səh-3**

Xidməti vəzifələrini yerinə yetirərkən sağlamlıqlarını itirən zabitlərin, əsgərlərin özlərini cəmiyyətdən kənar hiss etmədiklərini söyləyən kapitan Amil Dadaşov bununla qürur duyduqlarını qeyd edərək deyib: “Aprel döyüşlərində yaralanan hərbçi yoldaşlarım artıq üç il ərzində dinamik həyat fəaliyyəti ilə məşğul olurlar, insanların arasındadırlar”. Amil Dadaşov onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib.

Baş leytenant Namiq Əliyev qeyd edib ki, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlər Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə ən müasir, hər cür hərəkət qabiliyyətinə malik protezlərlə təmin edilib. “Bütün bunlar bizlərə verilən dəyər və qiymətdir. Bu gün biz ayağımızı, gözümüzü itirsək də qürur və əzəmətlə dayanırıq. Çünki biz gücümüzü torpaqdan alırıq”, - deyə Namiq Əliyev bildirib.

Görüşdə MEDİCOM şirkətinin direktoru Anar Rüstəmov Heydər Əliyev Fonduna minnətdarlığını bildirərək, protezlərlə təmin edilən hərbçilərimizə də layihə çərçivəsində görülən işlərdəki ruh yüksəkliyinə görə təşəkkürünü bildirib.

Sonra hərbçilərə Heydər Əliyev Fondunun təşəkkürnamələri təqdim edildi. Daha sonra Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşdü, onlarla səmimi söhbət etdi.

Söhbət zamanı Birinci vitse-prezident vətənpərvər övladlarımızın qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirdiyini, hər zaman onlara dəstək olacağını vurğulayaraq dedi:

-Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var. Mən hər zaman deyirəm ki, Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma bizim ən böyük sərvətimiz Azərbaycan xalqıdır, Azərbaycan insanıdır. Doğrudan da Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib. Analarımız fəxr etməlidirlər ki, sizin kimi igid övladlar böyüdüblər. Belə xalqla, belə əsgərlərlə, zabitlərlə, belə qardaşlarla biz Qarabağı mütləq qaytaracağıq. Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq.

Mən bir daha sizə dərin minnətdarlığımı bildirirəm. Mən bilirəm ki, Heydər Əliyev Fondunun əməkdaşları daim sizinlə ünsiyyətdədirlər. Bir daha sizi əmin etmək istəyirəm ki, hər bir problemin həllində biz əlimizdən gələn hər şeyi etməyə hazırıq. Siz müraciət edirsiniz, bilirəm ünsiyyətdəsiniz. Hər bir problemin həllini şəxsən özüm diqqətdə saxlayacağam. Mən mümkün olan köməyi ən yüksək səviyyədə göstərəcəyəm. Sağ olun.

Hərbçilər göstərdiyi diqqət və qayğıya görə Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər. Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu “2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi” layihəsini həyata keçirib. 2017-ci ildə Heydər Əliyev Fondunun və müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə yaradılan işçi qrupu 2016-cı il Aprel döyüşləri zamanı yaralanmış və protezləşməyə ehtiyacı olan hər bir əsgər və zabitlə görüşlər keçirib, onlara fərdi yanaşma tətbiq olunub. Belə ki, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin fərdi xüsusiyyətləri, onların aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və hər bir istifadəçinin protezlərə olan fərdi tələbləri təhlil edilərək hərbçilərimiz üçün uyğun, müasir protez istehsalçıları olan qabaqcıl şirkətlərin yüksək texnologiyalı məhsulları seçilib.

Tətbiq edilən yeni protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəkət uyğunluq yaradır. Bunun sayəsində protezlə ayaq və yaxud əl bir-birinə maksimum uyğunlaşmış olur. İstifadəçi protezi amputasiya olunmuş hissənin davamı kimi hiss edir və daha rahat addım atır, aktiv hərəkət edir.

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata qayıdaraq əmək fəaliyyətini davam etdirir.

# 2 APREL QƏHRƏMANLIQ SALNAMƏSİ

## *Ali Baş Komanlanından aprel döyüşü əlillərinə növbəti qayğı*

***Azərbaycan tarixinin qürurverici səhifələrindən biri olan 2016-cı il aprel döyüşləri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti nəticəsində, parlaq tarixi qələbələrlə tarixə qəhrəmanlıq salnaməsi kimi həkk olundu. 2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, qüdrətli Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi, Azərbaycan Ordusu dördgünlük aprel döyüşləri ilə 24 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Nəticədə, ermənilər öz "şanlı ordusu"nu tanıdı, eyni zamanda, bu ölkədə işğalçılığın və separatizmin dövlət səviyyəsində dəstəkləndiyi təsdiq olundu. Eyni zamanda, aprel zəfəri illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifini dağıldı və bir daha erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi.***

yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də, ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından, aprel döyüşləri, bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi da vurğulamayaq ki, dövlət başçısının Sərəncamı ilə bu il də şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbçilərlə bağlı mühüm sosial-müdafiə tədbirləri həyata keçirilib. Onlara qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq sosial təminat növləri, o cümlədən, Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdləri, müavinət və ya əmək pensiyaları, habelə uşaqlarına, eləcə də, əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə müavinətlər təyin olunub. Şəhid ailələrinə birdəfəlik ödəmələr verilib, onlar üçün Prezidentin aylıq təqaüdünün məbləği, mütəmadi olaraq artırılıb.

Rəsmi məlumata görə, cari ildə ralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi çərçivəsində həmin əsgər və zabitlərimiz Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı reabilitasiya məhsulları ilə təmin edildilər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, cari ilin fevral ayında 30-dək hərbçidən ibarət daha bir qrup Qarabağ müharibəsi əlili də protezləşməyə cəlb edildi. Onların hər birinin fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri nəzərə alınmaqla yüksək texnologiyalı məhsullar seçilərək təmin olundular. Reabilitasiya vasitələri ilə təmin olunan həmin Qarabağ müharibəsi əlilləri, artıq aktiv həyata geri dönərək əmək fəaliyyətlərini davam etdirir, bir qismi hərbi xidmətlərinə davam edir, ayrı-ayrı əlilliyi olan hərbçilər isə paralimpiya idman növləri ilə məşğul olurlar. Beləliklə, bütün bu göstərilən qayğı, məhz ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin fəaliyyətinin məntiqi nəticəsidir.

Bir sözlə, Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Çünki İlham Əliyev bütün çıxışlarında Azərbaycan dövlətinin əsas siyasi istiqamətlərindən birinin, məhz sosial siyasət olduğunu qeyd edir və bu reallıq özünü davamlı şəkildə isbatlayır.

Müdrik insanların dəfələrlə söylədiyi "Siyasətin ədalətli, siyasətçinin adil olması onu dəstəkləyənlərin sırasına baxanda məlum olur" ifadəsi bu gün Azərbaycanda öz təsdiqini tapır. Çünki bizim dövlətin yeritdiyi siyasət də, dövlət başçımızın siyasi fəaliyyəti də dünyanın hər yerində, işğalçı Ermənistan istisna olmaqla, hamı tərəfindən dəstəklənir. Xarici siyasətimizin beynəlxalq aləmdə təqdir olunması, Siahlı Qüvvələrimizin Ali Baş Komandanının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində nümayiş etdirdiyi qətiyyət, Milli Ordumuzun işğalçı dövlətin təxribatlarına tutarlı cavab verərək, düşmənin geri çəkilməsinə nail olması və bu kimi bir sıra başqa amillər həm ölkə əhalisi, həm də dünya ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanır. Çünki Azərbaycanın igid oğul və qızları Vətənin şərəfini öz qeyrətləri ilə qoruyub, qanları ilə müdafiə etdilər. 2 aprel tarixli uğurlu qələbəbimiz də, məhz Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun, Ulu Öndər Heydər Əliyev siyasətinin təməlində dayanan, və ölkə başçısı, Ali Baş Komandanımız İlham Əliyevin davam edən, yaşadılan tərəqqinin məntiqi nəticəsidir!

### Aprel döyüşləri "Böyük Qayıdış" prosesinə start verdi

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti o oldu ki, bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verildi. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 24 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Onu da, vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun təxribatı nəticəsində



bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir".

### Aprel döyüşlərində əlil olanların təqaüdləri 100 faiz artırıldı

Həmişə öz xalqının arxasında dayanan ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın işğaldan azad edilməsi yolunda fədakarlıq göstərən müharibə əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi və veteranlara qayğısını daima diqqətdə saxlayıb.

Məhz ərazi bütövlüyünün qorunub-saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlığa və igidliyə görə, Prezident Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupunu 2016-cı il aprelin 19-da müvafiq sərəncamları ilə yüksək fəxri adlara layiq gördü. Onu bu sahədə, növbəti mühüm addım kimi, 2019-cu il fevralın 1-dən həmin təqaüd 300 manata çatdırılıb. Eləcə də, müharibə əlilləri kimi, hərbi xidməti vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olanların, o cümlədən, aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər də cari il aprelin 1-dən 100 faizədək artırılıb. Eyni zamanda, aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin reabilitasiyasına xüsusi qayğı göstərilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşündə "Mənim tapşırığımla sizin hər birinizə fərdi yanaşma tətbiq olunacaq və normal hərəkət dinamikasına yardım edən müasir protezlə təmin olunacaqsınız" deyə bildirib. Bu tapşırığa uyğun olaraq, qeyd olunan əsgər və zabitlərin reabilitasiyası sahəsində yüksək səviyyədə işlər aparılıb.

Heydər Əliyev Fondunun "2016-cı ilin aprel döyüşlərində ya-

**RƏFİQƏ KAMALQIZI**

## Elmar Məmmədyarov Moskvada MDB-nin XİN Şurasının iclasında iştirak edəcək



Aprelin 5-də Rusiya Federasiyasının Moskva şəhərində Müstəqil Dövlətlər Birliyinin Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçiriləcək. Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, iclasda Azərbaycan Respublikasını xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edəcək.

## MDB dövlət başçıları Şurasının iclası Aşqabadda keçiriləcək



Oktyabrın 11-də Aşqabadda MDB dövlət başçıları Şurasının iclası keçiriləcək. Bu barədə Türkmənistan Xarici İşlər Nazirliyi xəbər yayıb. Qeyd olunub ki, mayın 15-16-da isə Aşqabadda MDB-yə üzv ölkələrin yaradıcı və elmi ictimaiyyət nümayəndələrinin forumu keçiriləcək.

# "Azərbaycan heç vaxt işğalla barışmayacaq"



"Müstəqil Azərbaycanın Aprel zəfərindən artıq 3 il ötür. Məhz təqvimin bu günü, bu qələbə müasir tariximizin şanlı səhifələrindən biridir. Güclü Ordumuz, qorxmaz Azərbaycan əsgəri düşmənin neçə ildir formalaşdırdığı mifi dağıdaraq işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdi, strateji əhəmiyyətə malik yüksəklikləri ələ keçirdi, bununla da nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Ordumuz sübut etdi ki, əgər sülh danışıqları bir nəticə verməzsə Azərbaycan işğal altında olan torpaqlarını hərb yolu ilə geri qaytara bilər. Aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışı zamanı bəyan edib ki, Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir... Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi" deyən Ali Baş Komandan Aprel döyüşlərinin əhəmiyyətini vurğulamaqla yanaşı, ordumuzun gücünü də ortaya qoyub". Bunu SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə ordu quruculuğunda əldə olunan uğurlara toxunaraq bildirib ki, ordumuz uğurla inkişaf edir, maddi-texniki bazası yenilənir, şəxsi heyətin peşəkarlıq qabiliyyəti, əhval-ruhiyyəsi günbəgün artır: "Bu gün Azərbaycan Ordusu ən müasir texnika, silah və sursatla təmin edilir. Bu amil isə onu deməyə əsas verir ki, Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır. Bu amil isə Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin üstünlüyünü təmin edən əsas faktorlardan biri kimi çıxış edir".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Aprel döyüşləri bir daha nümayiş etdirdi ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü qeyd-şərtsiz bərpa ediləcək: "Sözsüz ki, bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin mövqeyində heç bir dəyişiklik yoxdur. Torpaqlarımız işğaldan azad edilməli, qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıtmalı, regionda sülh və sabitlik bərqərar edilməlidir. Azərbaycanın ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri, eləcə də beynəlxalq birlik qarşısında tələbi budur. Çünki Dağlıq Qarabağ Azərbaycanın əzəli, tarixi torpağıdır".

Vüqar Rəhimzadə bildirib ki, Aprel döyüşləri nəticəsində düşmənin nəzarətindən çıxan Cocuq Mərcanlı kəndi bu gün sürətlə inişaf edir: "Artıq burada yeni həyat başlayıb. Qısa zaman kəsiyində kənddə 150 ev, məktəb, uşaq bağçası, məscid tikilib, yeni iş yerləri yaradılıb. Şübhəsiz ki, güclü Ordumuz işğal altındakı bütün torpaqları azad edəcək və Cocuq Mərcanlı kimi, bütün kənd və qəsəbələr yenidən qurulacaq".

# Seymur Orucov: Azərbaycanda həyata keçirilən gənclər siyasəti uğurlu nəticələr verməkdədir



"Azərbaycanda həyata keçirilən gənclər siyasəti uğurlu nəticələr verməkdədir". Bu fikri YAP Gənclər Birliyinin sədri Seymur Orucov deyib. S.Orucov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Onun sözlərinə görə, Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar: "Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar. Bu baxımdan, YAP sıralarında birləşən gənclər də ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edirlər".

Azərbaycanın inkişafını istəməyən qüvvələrin ölkəmizə qarşı qarayaxma kampaniyası apardığını deyən S.Orucov gəncləri bu qüvvələrə qarşı mübarizədə fəal olmağa, sosial şəbəkələrdə aktiv iştirak etməyə çağırıb.

## Səməd Seyidov: Aprel döyüşləri ilə sübut etdik ki, işğalçılar torpaqlarımızdan çıxarılacaq

"Aprel döyüşləri Azərbaycan Ordusunun qəhrəmanlıq nümunəsidir." Trend-in məlumatına görə, bunu Milli Məclisdə keçirilən İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun iclasında Azərbaycanın Avropa Şurası Parlament Asambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.

S.Seyidov bildirib ki, 2016-cı ilin aprelində Azərbaycan Ordusunun ən yüksək səviyyədə şücaət, qəhrəmanlıq göstərərək işğal altında olan torpaqlarımızın azad olunması üçün həyata keçirdiyi əməliyyat tariximizə qızıl hərflərlə yazılıb.

O qeyd edib ki, Azərbaycan aprel döyüşləri ilə dünyaya mesaj verdi: "Biz bir daha həm dünyaya, həm də torpaqlarımızı işğal edən qüvvələrə ciddi şəkildə mesaj verdik. Bəyan etmişdik ki, torpaqlarımız işğaldan azad olunacaq. Aprel döyüşləri ilə sübut etdik ki, işğalçılar torpaqlarımızdan çıxarılacaq. Bu hadisə ilə fəxr edirik. Bununla yanaşı, kədər hissi də var. Çünki əməliyyat zamanı Azərbaycanın qəhrəman oğulları şəhid oldu. Onlar ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçdilər, Ali Baş Komandan İlham Əliyevin əmrini sona qədər ləyaqətlə icra etdilər".

# "Yeni qərar KİV qurumlarının fəaliyyət imkanlarına uyğunlaşdırıldı"



"2019-cu ilin birinci rübü üçün KİV layihələrinin maliyyələşməsində Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun (KİVDF) şərtləri dəyişib. Həmin şərtlər ətrafında isə geniş müzakirələr getmişdi və əsaslandırılmış şərtlər idi. Amma prosesin gedişatında məlum oldu ki, KİV qurumlarının əksəriyyəti həmin şərtləri ödəmək imkanında deyil. Hətta bəzi KİV qurumları özlərinin fəaliyyətlərini dayandırdılar. Çünki onlar KİVDF-nin və dövlətin maliyyəsi olmadan öz fəaliyyətlərini sürdürməkdə çətinlik çəkirlər". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib.

Təbii ki, KİV qurumlarının da fəaliyyətini dayandırması yaxşı əlamət deyil. Çünki uzun müddət fəaliyyət göstərmiş, ixtisaslaşmış bir KİV qurumu sıradan çıxır, eyni zamanda orada çalışan jurnalistlərin taleyi ilə bağlı müəyyən problemlər yaranır. Onlar iş yerlərini itirirlər və yeni iş yerləri tapmaq üçün müraciət etməli olurlar və s. Bu baxımdan müəyyən çətinliklər yaranırdı. Azərbaycan dövləti və dövlət başçısı da bunu nəzərə alaraq növbəti humanist addımını atdı. Bilirsiniz ki, bu sahədə şərtlərə yenidən baxılması qərara alındı və dəyişikliklər olundu. Həmin qərar KİV qurumlarının fəaliyyət imkanlarına uyğunlaşdırıldı. Təbii ki, bu da kifayət qədər humanist addımlardır. Dövlətə və dövlət başçısına təşəkkür edirik. Nəhayət KİVDF müəyyən KİV qurumlarınını yenidən maliyyələrini elan etdi. Bu maliyyəyə nəzər yetirsəniz görərsiniz ki, ötən illərlə müqayisədə daha çox məbləğdir"-deyə, M.Ələsgərli fikrini tamamlayıb.

## AŞ PA yaz sessiyasında Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət müzakirə olunacaq

Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yaz sessiyası çərçivəsində Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət müzakirə olunacaq. Trend bu barədə Azərbaycanın Avropa Şurasındakı daimi nümayəndəliyinin məlumatına istinadən bildirir. Məlumatda qeyd olunur ki, AŞ PA yaz sessiyasına paralel olaraq aprelin 9-da keçiriləcək tədbirdə Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət və bunun Avropa Şurası qarşısında qəbul edilmiş öhdəliklər üçün nəticələri müzakirə olunacaq. Müzakirələrdə Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov iştirak edəcək. Qeyd edək ki, AŞ PA-nın yaz sessiyası aprelin 8-12-də Strasburqda keçiriləcək.

## "Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməyə qadirdir"

"Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsindəki çıxışında diqqəti cəlb edən xeyli mühüm məsələlər var". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib. Deputatın sözlərinə görə, bunlardan birincisi ondan ibarətdir ki, Vyana görüşündən dərhal sonra Prezident Azərbaycan Ordusunun xüsusi təyinatlıları ilə görüşdü və və danışıqlar masasında öz xalqına və onun güclü ordusuna arxalandığını nümayiş etdirmiş oldu: "Ancaq Vyana görüşündən sonra Ermənistanın baş nazirinin haraya telefon açdığına diqqət etsək görəcəyik ki, bu şəxs xalqına və ordusuna deyil, elə zəng etdiyi mərkəzlərə arxalanır. Yəni Ermənistan müstəqil dövlət deyil, forpostdur, kiminsə hərbi bazası statusunda olan bir subyektdir elə danışıqlara da sahibindən aldığı təlimatlar əsasında gedir.

İkinci mühüm məsələ ondan ibarətdir ki, Ali Baş Komandanımız bir daha bildirdi ki, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu fikir əslində işğalçı Ermənistana verilən ciddi ismarıc kimi qiymətləndirilə bilər. Yəni danışıqlar prosesini imitasiya yaxud manipulyasiya etmək cəhdlərinizə Azərbaycan sona qədər dözmək fikrində deyil və Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etmək hüququnu özündə saxlayır.

Üçüncü mühüm ismarıc isə Ermənistan-Azərbaycan, Dağlıq qarabağ münaqişəsi tarixində digər bütün faktorlarla bərabər Aprel döyüşlərindən sonra hərbi-psixoloji əhval-ruhiyyənin də Azərbaycanın lehinə dəyişməsi ilə əlaqədar idi. Prezident İlham Əliyev bildirdi ki, əlverişsiz mövqelərdən bizim hərbçilərimiz çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etmişlər. Eyni zamanda, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyəti vardır. Çünki uzun illər ərzində Ermənistan təbliğatı belə bir mif yaradırdı ki, onlar hərbi cəhətdən bizdən üstündür. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Bu mühüm əhəmiyyətli fikir həm də o deməkdir ki , baxmayaraq ki, bu gün xeyli sayda strateji yüksəkliklər və rayonlar işğal altındadır ancaq buna baxmayaraq Azərbaycan Ordusu bir həmlə ilə mövcud reallığı dəyişə bilər. Buna Ali Baş Komandanın siyasi iradəsi və güclü ordumuzun hərbi gücü çatar. Və nəhayət Prezident İlham Əliyev bir daha bəyan etdi ki, münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bütün bunlar isə belə bir ümumiləşdirmə aparmağa məntiqi əsas yaradır ki, Azərbaycan bütün üstünlüklərə sahib olan ölkə kimi öz ərazi bütövlüyünü bərpa etməyə hazırdır, qadirdir və geostrateji şərtlər uyğun olan kimi bu istiqamətdə qəti addımlar atacaq".

# Vyana danışıqları: ərazi bütövlüyünün bərpası ilkin şərt kimi

*Martın 29-da Avstriyanın paytaxtı Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında baş tutan danışıqlara ekspertlər və kütləvi informasiya vasitələri böyük maraq göstərib. Uzun müddət idi ki, tərəflər Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı müzakirə apara bilmirdilər. Bunun səbəbi Ermənistanda baş verən siyasi proseslər nəticəsində yaranmış iqtidar dəyişikliyi ilə bağlı idi. İndi isə proses yenidən canlanıb. Danışıqlarda ATƏT-in Minsk qrupunun həmsədrləri də iştirak ediblər. Müzakirələrdən sonra münaqişə tərəfləri və həmsədrlər müsbət məzmunda fikir bildiriblər. Həmsədrlər yaydıqları bəyanatda pozitiv məqamı açıq ifadə ediblər. Ermənistanın baş naziri də bütövlükdə danışıqların faydalı olduğunu bəyan edib. Bunlarla yanaşı, dəqiq və dolğun qiyməti Azərbaycan Prezidenti verib. Həmin məqamın işığında Vyana görüşünün geosiyasi analizi üzərində dayanmaq istərdik.*




### Baş tutan görüş: format dəyişmir!

Ermənilər çox sevinirlər ki, nəhayət, N.Paşinyan Azərbaycan Prezidenti ilə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı rəsmi müzakirə aparmaq üçün görüşə bildi. Vyanaya qədər İlham Əliyevlə N.Paşinyan Düşənbədə və Davosda danışmışdılar. Ancaq ilk dəfə idi ki, Vyanada münaqişənin həlli ilə bağlı üç saatdan çox davam edən danışıq oldu. Bu, martın 29-da baş verdi.

Ermənilər nəyə sevinirlər? Hesab edirlər ki, N.Paşinyan İlham Əliyevlə müzakirə apara bilirsə, deməli, Azərbaycan tərəfi Ermənistanın yeni iqtidarının legitimliyini qəbul edir. Eyni zamanda, N.Paşinyanla da nəyisə müzakirə etməyin lazım olduğunu qəbul edir. Əslində, bunlar beynəlxalq hüquq normaları çərçivəsində olan hadisələrdir və Azərbaycan üçün heç bir problem yaratmır. Bu səbəbdən Ermənistan üçün daha vacib olanı Azərbaycanın hərbi yolla torpaqları azad etmək planını hələ işə salmamasıdır. Ermənistan mediasında yer alan informasiyalar ermənilərin məhz bu məqamdan çox çəkindiyini göstərir.

Reallıq isə bir qədər başqa müstəvidədir. Məsələ ondan ibarətdir ki, Azərbaycan heç zaman münaqişənin sülh yolu ilə həllinə etiraz etməyib, əksinə, həmişə bu xəttə sadiq qalıb. Lakin Ermənistan nə zaman təcavüzkar kimi davranmağa çalışıb, Azərbaycan Ordusu onun cavabını yaxşı verib. Son olaraq bu, 2016-cı ilin aprelində və daha sonra Naxçıvanda özünü göstərdi. Ermənistan hakimiyyəti anladı ki, güc dili ilə Azərbaycanla danışmaq onu fəlakətə aparır. Bu səbəbdən N.Paşinyanın İlham Əliyevlə müzakirə apara bilməsinə çox çalışırdılar.

Vyanada aparılan danışıqlar yuxarıda vurğulananlarla yanaşı, onu da göstərdi ki, Ermənistan danışıqlar prosesinə heç bir pozitiv impuls verə bilmir. Vyanada Ermənistanın Dağlıq Qarabağdakı separatçı-terrorçuları danışıqlar prosesinə qoşmaq cəhdinin fiasko ilə nəticələndiyi bir daha aydın oldu. N.Paşinyan məcburən Azərbaycan Prezidenti ilə danışıqlarla bağlı fikir mübadiləsi apardı. Və orada qondarma "DQR"dən nümayəndə yox idi. Bu məqam N.Paşinyanın "ortaq təhlükəsizlik şurası" planının da sabun köpüyü olduğunu nümayiş etdirdi. Çünki "Ermənistan və Artsaxın (Qarabağ - redaktorun qeydi) təhlükəsizlik şuralarının birgə toplantısı"ndan sonra N.Paşinyan ədabazlıqla demişdi ki, "Artsax ona öz adından danışıqlar aparmaq hüququnu vermədi". Vyanada isə N.Paşinyan, əslində, bütün erməni separatçılarının adından danışıb. Özü də o, humanitar əlaqələrdən, xalqlar arasında münasibətlərin yaranmasından bəhs edib. Ermənistanın baş naziri sevincək bəyan edib ki, görüş müsbət olub. Danışıqlarda irəliləyiş olmasa da, "müzakirələr başlayıb". Yəni Ermənistan hakimiyyəti müzakirə faktının özünün olmasına sevinir. Təbii ki, Azərbaycan Ordusunun gücünü görənlər bir daha onunla qarşılaşmamağa üstünlük verməlidir. Lakin məsələnin başqa tərəfləri də vardır. Əlbəttə, münaqişənin danışıqlarla yolu ilə həlli Azərbaycana da sərf edir. Əsas odur ki, torpaqlar işğaldan azad edilsin. İşğalçı rədd olub getsin. Ermənilərdə olan türk-müsəlman fobiyası tarixin arxivinə atılsın. Ancaq Ermənistanın müdafiə naziri D.Tonoyanın Vaşinqtonda dediyi bir neçə cümlə bu ölkənin hələ də qeyri-konstruktiv mövqedə olduğunu təsdiq edir. Orada erməni nazir "yeni ərazilər uğrunda yeni müharibə" tezisini "kəşf etdiyini" utanmadan söyləyib. ABŞ özünü demokratiyanın beşiyi sayır, erməni isə məhz orada bəyan edir ki, Azərbaycanın yeni ərazilərini işğal etməyə hazırlaşırlar. Maraqlıdır ki, D.Tonoyanın beynəlxalq hüquqa tam zidd olan bu sərsəmləməsinə Vaşinqton reaksiya verməyib. Əgər belə bir fikri İranın və ya başqa bir müsəlman ölkəsinin müdafiə naziri söyləsəydi, Qərb necə reaksiya verərdi? Sualın cavabı İraq, Əfqanıstan, Suriya və digər müsəlman ölkələrində baş verənlərdədir.

Əslində, Azərbaycan üçün bu kimi söyləntilər boş bir şeydir. Ermənistan ordusu Azərbaycana qarşı bir addım atdığı andan darmadağın olacaq. Bunu ermənilər yaxşı bilir, buna görə də "yeni ərazi" iddiasının onlar üçün yeni faciələr gətirəcəyinə şübhə etmirlər. Ancaq Vyanada Ermənistanın baş nazirinin humanitar əlaqələrdən danışdığı bir vaxtda müdafiə nazirinin ABŞ-da müharibədən dəm vurması erməni siyasi düşüncəsinin anormallığından xəbər verir. Bu baxımdan N.Paşinyanın müsbət hal kimi qiymətləndirdiyi danışıqların necə sonuclanacağı aydın deyil.

### Həqiqət anı: Prezident danışıqları obyektiv və dəqiq qiymətləndirib

Əsas odur ki, Azərbaycan Prezidenti İlham Əliyevin danışıqlarla bağlı ifadə etdiyi dəqiq, obyektiv və lakonik fikirlərin fonunda ermənilərin söylədikləri çox sönük və qeyri-obyektiv görünür. Dövlət başçısı İlham Əliyev Rusiyanın TASS agentliyinə verdiyi müsahibədə vurğulayıb: "Bildiyiniz kimi, xarici işlər nazirləri bir neçə raund danışıqlar aparıblar. Görüş ona görə mühümdür ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yeni start verilib. Biz etimadı, ola bilsin ki, insanlar arasında təmaslar çərçivəsində möhkəmləndirməklə bağlı məsələləri müzakirə etdik. Bundan əvvəl ictimaiyyət nümayəndələri arasında təmaslar olub. Yəni, hələ bu barədə danışmaq tezdir, lakin humanitar məsələlərə gəldikdə, bu, nəzərdə tutulur. Çünki danışıqlar prosesi təbii ki, həm də humanitar aksiyalarla dəstəklənməlidir".

Deməli, hələlik danışıqlar prosesində etimad məsələsi önəm kəsb edir. Bu səbəbdən məsələnin mahiyyəti ilə bağlı danışıqlara başlanması müsbət haldır. Bu çərçivədə humanitar məsələlərin də müzakirəsi mümkündür, ancaq o barədə danışmaq hələ tezdir. Konkret vəziyyət bundan ibarətdir. Azərbaycan Prezidenti fikirlərini inkişaf etdirərək bəyan edib: "Lakin mən hesab edirəm, əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib. Bu da vacibdir. Biz Minsk qrupunun həmsədrlərinin 9 mart tarixli bəyanatını, - siz yəqin ki, onunla tanışsınız, - çox müsbət qiymətləndirdik. Orada deyilir ki, danışıqlar formatının dəyişdirilməsi yalnız iki tərəfin razılığı ilə ola bilər. Azərbaycan tərəfi təbii ki, buna razılıq vermədi. Ona görə də biz prinsipcə substantiv danışıqların davam etdirilməli olduğu vəziyyətə qayıtdıq".

Aydındır ki, danışıqların səmərəli olması üçün onun hansı formatda aparılması çox vacibdir. Nə Azərbaycan tərəfi, nə də həmsədrlər N.Paşinyanın danışıqların formatını dəyişməklə bağlı irəli sürdüyü iddianı dəstəkləməyiblər. Bu o deməkdir ki, N.Paşinyan özü də istəmədən öncəki formatda danışıqlar masasına oturmalı olub. Bunu etməsəydi, Ermənistan ciddi zərbələr alacaqdı. Deməli, erməni KİV-lərinin hay-küyünə baxmayaraq, rəsmi İrəvan yeni heç nə təklif edə bilməyib və edə biləcəyi ehtimalı da çox aşağıdır. Danışıqların bu formatda davam etdirilməsi BMT Nizamnaməsini, Helsinki Yekun Aktını və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədləri nəzərə almağı tələb edir. Bu isə avtomatik olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpasını şərt kimi qoyur. Dövlət başçısı İlham Əliyev həmin bağlılıqda ifadə edib: "Xarici işlər nazirlərinə tapşırıqlar verilib. Onlar çox güman ki, nəticəyə yönələn danışıqlar prosesini davam etdirmək üçün yaxın vaxtlarda görüşəcəklər. Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur".

Olduqca konkret, dəqiq və aydın ifadə edilib - Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalı, BMT-nin dörd qətnaməsi yerinə yetirilməlidir! Əlbəttə, bu şərtlərin ödənildiyi halda humanitar əlaqələrə heç kəs etiraz etməz. Yəni humanitar əlaqələr məqsəd deyil, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün lazım olan psixoloji məqamdır. Bu həqiqəti erməni ictimaiyyətinin də anlaması zamanı gəlib. Vyana danışıqlarının müsbət tərəfi məhz bu kimi məqamların artıq müzakirəyə çıxarılması ilə bağlıdır.

**Newtimes.az**

# "Siyasi partiyaların cəmiyyətdə rolu"

## "Səs" qəzetinin redaksiyasında bu mövzuda ölkənin aparıcı partiyalarının iştirakı ilə dəyirmi masa keçirilib



***Artıq illərdir ki, "Səs" qəzeti tərəfindən ənənəvi olaraq, ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən, günün aktual və prioritet mövzuları ətrafında silsilə xarakterli dəyirmi masalar təşkil olunur. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri ilə yanaşı, ölkəmizdə dövlət başçısının rəhbəriliyi ilə həyata keçirilən islahatlar və layihələr ətrafında dövlət nümayəndələrinin, millət vəkillərinin, ictimai təşkilat rəhbərlərinin iştirakı ilə müzakirələr aparılır.***

Növbəti dəyirmi masa "Siyasi partiyaların cəmiyyətdə rolu" mövzusunda keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi, millət vəkili Elman Nəsirov,Azərbaycan Sosial Demokrat Partiyasının sədri, millət vəkili Araz Əlizadə, Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli,Azərbaycan Demokrat Partiyasının sədr müavini Taliyət Əliyev, AMİP-in siyasi şurasının üzvü Əli Orucov, Müasir Müsavat Partiyasının sədr müavini İbrahim Həsənov, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu, Azadlıq Hərakatçıları İB-nin sədri Təhmasib Novruzov, AXCP sədri Əli Kərimlinin əmisi oğlu "Azərbaycan Fermeri" qəzetinin baş redaktoru Nuhəli Kərimov, gənc fəal Fuad Muradov iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev açaraq, bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələblərinə uyğun siyasi islahatların, icra edilən iqtisadi proqram və sərəncamların ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verdiyini diqqətə çatdırdı: "Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bütün bunlar Azərbaycanda dövlət və xalq birliyinin bariz nümunəsidir".

**BƏHRUZ QULİYEV:**

- Elman müəllim, qətiyyətlə deyə bilərik ki, müasir dövrümüzdə Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkəmizdə çoxsaylı fərman və sərəncamlar imzalanıb və parlamentdə müvafiq qanunlar qəbul olunub. Ölkəmizdəki ictimai-siyasi vəziyyəti necə xarakterizə edərdiniz?

### MÜXALİFƏT ADI ALTINDA HANSISA BEYNƏLXALQ SİYASİ DAİRƏLƏRİN MƏNAFEYİNƏ XİDMƏT EDƏRƏK, ÖLKƏMİZDƏKİ SABİTLİYİ POZMAQ, ARTIQ BU, XƏYANƏTDİR

**ELMAN NƏSİROV:**

- İlk olaraq, "Səs" qəzetinin ənənəsinə sadiq qalaraq, bu günümüz üçün əhəmiyyət kəsb edən, aktual olan "Siyasi partiyaların cəmiyyətdə rolu" mövzusunda dəyimi masa təşkil etdiyiniz üçün minnətdarlığımı bildirirəm. Dəfələrlə dəyirmi masaların iştirakçısı olmuşam və çox açıq və obyektiv şəkildə müzakirələrin aparıldığının şahidinə çevrilmişəm. Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi olaraq onu bildirim ki, Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə sabitlik, təhlükəsizlik və əmin-amanlıq təmin edilib. Sabitlik olmayan yerdə hər hansı tərəqqi və islahatı həyata keçirmək qeyri-mümkündür. Dünya qloballaşır, dəyişir, yeni çağırışlar və təhdidlər meydana gəlir. Həyatın özü islahatları qaçılmaz və davamlı edir. Ona görə də, Cənab İlham Əliyev tərəfindən Azərbaycanda siyasi-iqtisadi islahatlar davam etdirilir. Məhz bu islahatlar nəticəsində, ölkəmizin inkişafı təmin edilir. Sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifah halının daha da yaxşılaşdırılması, ölkəmizin və vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması dayanır. Xalq Cənab Prezidentin atdığı addımları, birmənalı olaraq, dəstəkləyir. Sual yarana bilər ki, xalqımız nəyə görə dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasətini belə dəstəkləyir? Bunun bir cavabı var: Cənab Prezident üçün əsas məsələ milli maraq və milli mənafe məsələsidir. Xalqımızın milli maraq və milli mənafeyini müdafiə əsas istiqamətdir. Heç bir böyük beynəlxalq təşkilatın, siyasi dairənin, yaxud dövlətin diktəsi altında deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn siyasət həyata keçirilir və həmin siyasətin nəticəsində, təhlükəsiz Azərbaycan mövcuddur. Azərbaycanın dinamik inkişafı və beynəlxalq nüfuzunun, mütəmadi olaraq, artması bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin anti-Azərbaycan dairələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparır və qərəzli yanaşma nümayiş etdirirlər. Odur ki, hər bir vətəndaş Azərbaycandakı bu təhlükəsiz mühiti, sabitliyi göz bəbəyi kimi qorumalıdır.

Xaricdə mövcud olan anti-Azərbaycan qüvvələri öz niyyətlərini Azərbaycanda həyata keçirə bilmirlər. Səbəb isə, ölkəmizdə mövcud olan xalq və iqtidar birliyidir. Azərbaycan Prezidentinin prinsipiallığı, yürütdüyü mükəmməl daxili və xarici siyasət, bütün məqamlarda, Azərbaycanı ancaq işıqlı gələcəyə aparıb və bundan sonra da aparacaq.

Cənab İlham Əliyev kimi bir Liderin rəhbər olduğu ölkədə heç bir məkrli niyyəti, qara ideologiyanı, absurd ssenariləri həyata keçirmək mümkün deyil. Anti-Azərbaycan qüvvələr ölkənin daxilində müəyyən siyasi qruplaşmalarla dialoqa girib, siyasi sabitliyi və əmin-amanlığı pozmağa çalışırlar. Təbii ki, bunun müxalifətçiliklə heç bir əlaqəsi yoxdur. Təki ölkəmizdə güclü və sağlam müxalifət olsun. Sadəcə olaraq, müxalifət adı altında hansısa beynəlxalq siyasi dairələrin mənafeyinə xidmət edərək, ölkəmizdəki sabitliyi pozmaq, artıq bu, xəyanətdir. "Mən müxalifətəm" iddiasında olan qüvvələr cəmiyyətdə müəyyən qədər dəstək ola bilərdi ki, onlar iqtidarın qazandığı uğurlara sevinə bilərdi. Sual edirəm ki, bir dəfə görmüsünüz ki, özünü radikal müxalifət liderləri sayan şəxs desin ki, aprel döyüşləri bizim zəfərimiz idi. Bunu deməyə özündə güc tapsın. Amma radikal müxalifətin lideri özünün facebook səhifəsində belə yazır: "Görək Cocuq Mərcanlıya neçə nəfər qayıdacaq və qayıdacaqsa, neçə gün qalacaq?". Heç bunu erməni belə söyləməz.

Biz ölkəmizdəki sabitliyi, iqtidar olaraq da, müxalifət olaraq da, göz bəbəyimiz kimi qorumalıyıq. Çünki bu, milli məsələdir.

**BƏHRUZ QULİYEV:**

- Həqiqətən də, siyasi mövqeyimizdən asılı olmayaraq, biz ölkəmizdəki təhlükəsizliyi qorumalı, bir nöqtəyə vurmalıyıq. Bildiyiniz ki, 2015-ci ildə Türkiyədə baş verən hadisələr zamanı, biz gördük ki, türklər siyasi vəziyyətin gərginləşdiyi bir vaxtda hər şeyi bir kənara qoyaraq, birləşdilər. Milli məsələlərdə biz birləşməyi bacarmalıyıq. Bu gün ölkəmizdə iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Bu gün proqram xarakterli iqtisadi və sosial layihələr həyata keçirilir. Belə bir zamanda, Azərbaycanı mənəvi terrora məruz qoyanlar və onların missionerləri bu gün özələrin müxalifət hesab edə bilərmi? Dəyirmi masada iştirak edən konstruktiv müxalifətin nümayəndələrinə sual edirəm. Bu gün, həqiqətən də, anti-Azərbaycan qüvvələrə dəstək verənlərə ehtiyac varmı?

### CƏMİL HƏSƏNLİ BİR PROQRAMI ORTAYA QOYA BİLMƏDİ

**ARAZ ƏLİZADƏ:**

- Əvvəla, onu deyim ki, mitinqlərin keçirilməsinin günahı məndədir. Azərbaycanda ilk mitinqi 1988-ci ildə mən keçirmişəm. Nəyə görə günah məndədir? Mən mitinqlə insanlara mübarizə yolunu göstərmişəm və sonralar geri çəkilmişəm. Amma təəssüf ki, müxalifətdə olan qüvvələr də, mitinqdən başqa, bir mübarizə yolunu tanımırlar. Nə

# "Siyasi partiyaların cəmiyyətdə rolu"

## "Səs" qəzetinin redaksiyasında bu mövzuda ölkənin aparıcı partiyalarının iştirakı ilə dəyirmi masa keçirilib



***Artıq illərdir ki, "Səs" qəzeti tərəfindən ənənəvi olaraq, ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən, günün aktual və prioritet mövzuları ətrafında silsilə xarakterli dəyirmi masalar təşkil olunur. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri ilə yanaşı, ölkəmizdə dövlət başçısının rəhbəriliyi ilə həyata keçirilən islahatlar və layihələr ətrafında dövlət nümayəndələrinin, millət vəkillərinin, ictimai təşkilat rəhbərlərinin iştirakı ilə müzakirələr aparılır.***

Növbəti dəyirmi masa "Siyasi partiyaların cəmiyyətdə rolu" mövzusunda keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi, millət vəkili Elman Nəsirov,Azərbaycan Sosial Demokrat Partiyasının sədri, millət vəkili Araz Əlizadə, Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli,Azərbaycan Demokrat Partiyasının sədr müavini Taliyət Əliyev, AMİP-in siyasi şurasının üzvü Əli Orucov, Müasir Müsavat Partiyasının sədr müavini İbrahim Həsənov, Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu, Azadlıq Hərakatçıları İB-nin sədri Təhmasib Novruzov, AXCP sədri Əli Kərimlinin əmisi oğlu "Azərbaycan Fermeri" qəzetinin baş redaktoru Nuhəli Kərimov, gənc fəal Fuad Muradov iştirak edirdilər.

Dəyirmi masanı giriş sözü ilə "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev açaraq, bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələblərinə uyğun siyasi islahatların, icra edilən iqtisadi proqram və sərəncamların ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verdiyini diqqətə çatdırdı: "Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bütün bunlar Azərbaycanda dövlət və xalq birliyinin bariz nümunəsidir".

**BƏHRUZ QULİYEV:**

- Elman müəllim, qətiyyətlə deyə bilərik ki, müasir dövrümüzdə Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkəmizdə çoxsaylı fərman və sərəncamlar imzalanıb və parlamentdə müvafiq qanunlar qəbul olunub. Ölkəmizdəki ictimai-siyasi vəziyyəti necə xarakterizə edərdiniz?

### MÜXALİFƏT ADI ALTINDA HANSISA BEYNƏLXALQ SİYASİ DAİRƏLƏRİN MƏNAFEYİNƏ XİDMƏT EDƏRƏK, ÖLKƏMİZDƏKİ SABİTLİYİ POZMAQ, ARTIQ BU, XƏYANƏTDİR

**ELMAN NƏSİROV:**

- İlk olaraq, "Səs" qəzetinin ənənəsinə sadiq qalaraq, bu günümüz üçün əhəmiyyət kəsb edən, aktual olan "Siyasi partiyaların cəmiyyətdə rolu" mövzusunda dəyirmi masa təşkil etdiyiniz üçün minnətdarlığımı bildirirəm. Dəfələrlə dəyirmi masaların iştirakçısı olmuşam və çox açıq və obyektiv şəkildə müzakirələrin aparıldığının şahidinə çevrilmişəm. Yeni Azərbaycan Partiyası Beynəlxalq Əlaqələr Komissiyasının katibi olaraq onu bildirim ki, Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə sabitlik, təhlükəsizlik və əmin-amanlıq təmin edilib. Sabitlik olmayan yerdə hər hansı tərəqqi və islahatı həyata keçirmək qeyri-mümkündür. Dünya qloballaşır, dəyişir, yeni çağırışlar və təhdidlər meydana gəlir. Həyatın özü islahatları qaçılmaz və davamlı edir. Ona görə də, Cənab İlham Əliyev tərəfindən Azərbaycanda siyasi-iqtisadi islahatlar davam etdirilir. Məhz bu islahatlar nəticəsində, ölkəmizin inkişafı təmin edilir. Sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifah halının daha da yaxşılaşdırılması, ölkəmizin və vətəndaşlarımızın təhlükəsizliyinin təmin olunması dayanır. Xalq Cənab Prezidentin atdığı addımları, birmənalı olaraq, dəstəkləyir. Sual yarana bilər ki, xalqımız nəyə görə dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasətini belə dəstəkləyir? Bunun bir cavabı var: Cənab Prezident üçün əsas məsələ milli maraq və milli mənafe məsələsidir. Xalqımızın milli maraq və milli mənafeyini müdafiə əsas istiqamətdir. Heç bir böyük beynəlxalq təşkilatın, siyasi dairənin, yaxud dövlətin diktəsi altında deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn siyasət həyata keçirilir və həmin siyasətin nəticəsində, təhlükəsiz Azərbaycan mövcuddur. Azərbaycanın dinamik inkişafı və beynəlxalq nüfuzunun, mütəmadi olaraq, artması bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin anti-Azərbaycan dairələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparır və qərəzli yanaşma nümayiş etdirirlər. Odur ki, hər bir vətəndaş Azərbaycandakı bu təhlükəsiz mühiti, sabitliyi göz bəbəyi kimi qorumalıdır.

Xaricdə mövcud olan anti-Azərbaycan qüvvələri öz niyyətlərini Azərbaycanda həyata keçirə bilmirlər. Səbəb isə, ölkəmizdə mövcud olan xalq və iqtidar birliyidir. Azərbaycan Prezidentinin prinsipiallığı, yürütdüyü mükəmməl daxili və xarici siyasət, bütün məqamlarda, Azərbaycanı ancaq işıqlı gələcəyə aparıb və bundan sonra da aparacaq.

Cənab İlham Əliyev kimi bir Liderin rəhbər olduğu ölkədə heç bir məkrli niyyəti, qara ideologiyanı, absurd ssenariləri həyata keçirmək mümkün deyil. Anti-Azərbaycan qüvvələr ölkənin daxilində müəyyən siyasi qruplaşmalarla dialoqa girib, siyasi sabitliyi və əmin-amanlığı pozmağa çalışırlar. Təbii ki, bunun müxalifətçiliklə heç bir əlaqəsi yoxdur. Təki ölkəmizdə güclü və sağlam müxalifət olsun. Sadəcə olaraq, müxalifət adı altında hansısa beynəlxalq siyasi dairələrin mənafeyinə xidmət edərək, ölkəmizdəki sabitliyi pozmaq, artıq bu, xəyanətdir. "Mən müxalifətəm" iddiasında olan qüvvələr cəmiyyətdə müəyyən qədər dəstək ola bilərdi ki, onlar iqtidarın qazandığı uğurlara sevinə bilərdi. Sual edirəm ki, bir dəfə görmüsünüz ki, özünü radikal müxalifət liderləri sayan şəxs desin ki, aprel döyüşləri bizim zəfərimiz idi. Bunu deməyə özündə güc tapsın. Amma radikal müxalifətin lideri özünün facebook səhifəsində belə yazır: "Görək Cocuq Mərcanlıya neçə nəfər qayıdacaq və qayıdacaqsa, neçə gün qalacaq?". Heç bunu erməni belə söyləməz.

Biz ölkəmizdəki sabitliyi, iqtidar olaraq da, müxalifət olaraq da, göz bəbəyimiz kimi qorumalıyıq. Çünki bu, milli məsələdir.

**BƏHRUZ QULİYEV:**

- Həqiqətən də, siyasi mövqeyimizdən asılı olmayaraq, biz ölkəmizdəki təhlükəsizliyi qorumalı, bir nöqtəyə vurmalıyıq. Bildiyiniz ki, 2015-ci ildə Türkiyədə baş verən hadisələr zamanı, biz gördük ki, türklər siyasi vəziyyətin gərginləşdiyi bir vaxtda hər şeyi bir kənara qoyaraq, birləşdilər. Milli məsələlərdə biz birləşməyi bacarmalıyıq. Bu gün ölkəmizdə iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Bu gün proqram xarakterli iqtisadi və sosial layihələr həyata keçirilir. Belə bir zamanda, Azərbaycanı mənəvi terrora məruz qoyanlar və onların missionerləri bu gün özələrin müxalifət hesab edə bilərmi? Dəyirmi masada iştirak edən konstruktiv müxalifətin nümayəndələrinə sual edirəm. Bu gün, həqiqətən də, anti-Azərbaycan qüvvələrə dəstək verənlərə ehtiyac varmı?

### CƏMİL HƏSƏNLİ BİR PROQRAMI ORTAYA QOYA BİLMƏDİ

**ARAZ ƏLİZADƏ:**

- Əvvəla, onu deyim ki, mitinqlərin keçirilməsinin günahı məndədir. Azərbaycanda ilk mitinqi 1988-ci ildə mən keçirmişəm. Nəyə görə günah məndədir? Mən mitinqlə insanlara mübarizə yolunu göstərmişəm və sonralar geri çəkilmişəm. Amma təəssüf ki, müxalifətdə olan qüvvələr də, mitinqdən başqa, bir mübarizə yolunu tanımırlar. Nə

# Bəhruz Quliyev: Azərbaycan xalqı öz Ali Baş Komandanına, Ordusuna güvənir

***Azərbaycan Ordusu bu gün öz inkişafı və tərəqqisi ilə, eləcə də güc potensialı ilə dünyanın ən elitar orduları sırasında yer alıb. Bu gerçəklik özünü hərtərəfli şəkildə sübuta yetirir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında "SƏS" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.***



Ekspert bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərinin üçüncü ildönümündə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsinə getməsi bu savaşda qəhrəmanlıq göstərmiş zabit və hərbçilərimizə diqqətin təcəssümüdür. Bilirik ki, 3 il öncə Silahlı Qüvvələrimizin bütün qoşun növləri işğalçı Ermənistanın təxribatlarının qarşısının alınmasında qəhrəmanlıq göstəriblər, Xüsusi Təyinatlı Qüvvələr isə öndə gedərək Aprel zəfərinə şücaətlə, canı-qanı bahasına yol açdı. Ali Baş Komandanın bu qoşun növünə aid hərbi hissəni ziyarət etməsi bütövlükdə torpaqlarımızın azadlığı uğrunda şəhid olan zabit və əsgərlərimizə ehtiramın göstəricisidir.

Prezident İlham Əliyev çıxışında Azərbaycan Ordusunun bu gün ən yüksək keyfiyyətlərə malik olduğunu və istənilən anda istənilən vəzifəni icra edə biləcəyini vurğuladı. Bu gün hərbi hissələrdə quruculuq işləri davam etdirilir, müvafiq təlimləri keçmək üçün hərbçilərə ən münbit şərait yaradılır. Əlbəttə, bütün bunlar ordumuzun sürətli inkişafının bariz göstəricisi olaraq qiymətləndirilir. Bu gün şanlı ordumuz dünya miqyasında ən güclü ordular sırasında yer almaqdadır. Zabit və hərbçilərimiz bir sıra antiterror əməliyyatlarında, NATO standartları səviyyəsində keçirilən böyük hərbi təlimlərdə, habelə ölkələrarası beynəlxalq təlimlərdə, müsabiqələrdə iştirak edərək nə qədər yüksək hərbi hazırlığa, potensiala malik olduqlarını sübuta yetirirlər.

Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar proqramı Qarabağ müharibəsi və Aprel döyüşlərində şəhid düşmüş zabit və əsgərlərimizin ailələrinə, qazilərimizə də öz töhfələrini verir. Ölkə başçısı bu görüşdə həmin məsələyə də toxunaraq bildirib ki, yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıdıblar. Onların müalicəsi, bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülüb. Eyni zamanda, hərbçilərin məişət, sosial problemləri həll olunur, onlara yeni mənzillər verilir və bu proses davam etdirilir. Azərbaycan Ordusu qısa dövr ərzində nəhəng inkişaf yolu keçib. Əvvəlki zamanlarla müqayisədə biz bunu aydın şəkildə görə bilərik.

Bəhruz Quliyev Prezident İlham Əliyevin çıxışında AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu vaxt xəyanətkar əməllərinə də toxunduğunu xatırladaraq bildirib ki, məhz həmin xəyanət nəticəsində işğal edilmiş torpaqlarda Ermənistan silahlı qüvvələri möhkəmləndi, Ermənistanla Dağlıq Qarabağ arasında canlı bağlantı yaradıldı və düşmənə imkan verdi ki, öz işğalçılıq siyasətini davam etdirsin. Əgər ulu öndər Heydər Əliyev olmasaydı Azərbaycan xalqı daha ağır fəsadlarla nəticələnəcək vəziyyətə düşəcəkdi. Məhz onun qətiyyəti, iradəsi, mübarizliyi sayəsində Qarabağda uğurlu əməliyyatlar keçirildi, Horadiz və digər yaşayış məntəqələrimiz erməni işğalından azad edildi. 2016-cı ilin Aprel döyüşləri və daha sonra əldə edilən Naxçıvan zəfəri bütövlükdə Qarabağımızın işğaldan azad edilməsinə açılan qələbə yolu oldu. Bu gün Azərbaycan xalqı öz Ali Baş Komandanına, Ordusuna güvənir, hər an torpaqlarının azad edilməsi üçün mübarizəyə hazır olduğunu nümayiş etdirir.

Siyasi ekspert vurğulayıb ki, artıq dünya birliyi, mötəbər beynəlxalq təşkilatlar da Qarabağ torpaqlarının Ermənistan tərəfindən işğala məruz qaldığını etiraf edir, müvafiq bəyanatlar, qətnamələr qəbul edirlər. Dövlətimizin başçısı öz çıxışında bu barədə danışarkən bütün mötəbər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələr qəbul etdiklərini xatırladıb. Bildirib ki, Azərbaycan dövləti və xalqı hüququn onun tərəfində olduğunu bilir və işğal altındakı torpaqlarımızın azad edilməsi üçün daim hazır olduğunu nümayiş etdirir. Ermənistan rəhbərliyinin bu və ya digər şəkildə danışıqlar formatını dəyişmək cəhdləri də heç bir nəticə verməyib, bundan sonra da verməyəcək. Çünki Prezident İlham Əliyevin birmənalı və qətiyyətli mövqeyi həmin cəhdlərin qarşısını birdəfəlik alıb. Elə sonuncu Vyana görüşündə də biz bu qətiyyəti gördük. Ölkə başçısının da vurğuladığı kimi, haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. O cümlədən iqtisadi və hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir.

# Ərdoğan gələn həftə Rusiyaya gedir



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu il üçüncü dəfə Rusiya federasiyasına səfər edəcək. AZƏRTAC xəbər verir ki, aprelin 8-də baş tutması planlaşdırılan səfər çərçivəsində R.T.Ərdoğan Türkiyə-Rusiya Mədəniyyət və Turizm ilinin açılışı və Türkiyə-Rusiya Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının toplantısında iştirak edəcək, Bolşoy Teatrın əsas səhnəsində "Troya" operasını izləyəcək.

# YAP Xəzər rayon təşkilatı gənclər birliyinin VII hesabat-seçki konfransı keçirilib



Dünən Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatı gənclər birliyinin VII hesabat-seçki konfransı keçirilib.

Tədbiri giriş sözü ilə YAP Xəzər rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü Namiq Əhmədov açaraq qeyd edib ki, YAP Xəzər rayon təşkilatı bir çox uğurlara imza atıb. O, YAP Xəzər rayon təşkilatının ötən illər ərzində gördüyü işlərdən və həyata keçirdiyi tədbirlərdən bəhs edərək, təşkilatın gənclər birliyinin fəaliyyəti haqqında fikirlərini bildirib.



YAP Xəzər rayon təşkilatı gənclər birliyinin üzvü Sadiq Əliyev çıxış edib. S.Əliyev Azərbaycanda uğurlu gənclər siyasətinin həyata keçirildiyini bildirib və qeyd edib ki, Prezident İlham Əliyevin siyasətində gənclərlə iş mühüm yer tutur. O, partiyanın gənclərin öz bilik və bacarıqlarını təqdim etmək üçün bütün imkanlar yaratdığını deyərək, YAP Xəzər rayon təşkilatının üzvü olan gənclərin ictimai-siyasi proseslərdə fəal iştirak etdiyini bildirib.

YAP Xəzər rayon təşkilatı gənclər birliyinin idarə heyətinin üzvü Ülkər Qəhrəmanlı da gənclərin ictima-siyasi proseslərdə iştirakı haqqında fikirlərini bildirib.

Konfransda YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucov çıxış edərək, Azərbaycanda uğurlu gənclər siyasətinin həyata keçirildiyini deyib. "Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb" deyən Seymur Orucov qeyd edib ki, Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar: "Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə və istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar. Bu baxımdan, YAP sıralarında birləşən gənclər də ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edirlər".

Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədr müavini Rauf Əliyev isə bildirib ki, gənclərimizə göstərilən qayğı ildən-ilə artmaqdadır. O, hazırda Xəzər rayonunda gənclərlə fəal iş quruldüğunu, müxtəlif tədbirlərin həyata keçirildiyini, gənclərin ictimai-siyasi proseslərdə aktiv olduqlarını diqqətə çatdırıb.

Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Aqiyə Naxçıvanlı da çıxışında gənclərə yüksək bilik qazanmağı tövsiyə edib. "Hər bir millət öz savadı və intellekti ilə irəli gedə bilər" deyə qeyd edən millət vəkili, bu baxımdan, dövlətin gələcəyin sahibləri olan gənclərimiz üçün bütün imkanları yaratdığını deyib.

Tədbirdə çıxış edən Xəzər rayon icra hakimiyyətinin başçısı Elşən Salahov Azərbaycanda dövlət-gənclər siyasətinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu siyasəti hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyini bildirib. Xəzər rayonunda həyata keçirilən tədbirlərdən danışan ELŞƏN Salahov rayon gənclərinin quruculuq prosesində fəal iştirak etdiklərini diqqətə çatdırıb. O, YAP Xəzər rayon təşkilatı gənclər birliyinə fəaliyyətində uğurlar arzulayıb və gəncləri hər zaman təşəbbüskar olmağa çağırıb.

Konfransda çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə partiyamızın yaranma tarixindən danışıb və qeyd edib ki, YAP yarandığı gündən siyasi mübarizələrlə zəngin bir yol keçib və artıq bu gün partiya növbəti zəfərlərə və qələbələrə doğru inamla irəliləməkdədir. "Bu gün Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin yorulmaz və qətiyyətli siyasət yürütməsi nəticəsində, Azərbaycan dünyanın ən aparıcı dövlətləri sırasında yer almaqdadır" deyən millət vəkili partiyanın sıralarının artığını və günəclərin bu siyasi təşkilata axın etdiyini vurğulayıb.

Konfransda təşkilati məsələlərə baxılıb və YAP Xəzər rayon təşkilatı gənclər birliyinin 15 nəfərdən ibarət idarə heyəti müəyyənləşib. Sadiq Əliyev YAP Xəzər rayon təşkilatı gənclər birliyinin sədri, Nazlı Tahirova isə sədr müavini seçilib.

***Rövşən RƏSULOV***

*“Ölümün insana başucalığı gətirə biləcəyini bilmirdim. Mənalı ömür, şərəfli ölüm hər kəsə nəsib olmayan bir zirvəymiş. Həyatda elə uca dəyərlərimiz var ki, Aprel döyüşlərinin şəhid qəhrəmanı Murad Mirzəyev onu canından üstün tutdu. Artıq üçrəngli bayrağımıza baxanda belə qəhrəmanları görürük, himnimizi eşidəndə onların hünərini yad edib qürurlanırıq. Aprel döyüşlərində ordumuzun qazandığı qələbədən sonra yol keçən bir əsgəri bağrımıza basmaq istəyirik. Getdiyimiz tədbirlərdə, oxuduğumuz qəhrəmanlıq hekayələrində indi hamı onlardan danışır. Sosial şəbəkələrdə hamı Aprel döyüşlərinin qəhrəmanlarının hünərini paylaşır...”.*

# Ömrün hünər zirvəsi

## *Milli Qəhrəman polkovnik-leytenant Murad Mirzəyevin xatirəsinə*



2016-cı ilin aprel döyüşlərinin növbəti ildönümündə Türkiyənin İzmir şəhərindən Azərbaycan sevdalı dostumuz Asif Qurbandan aldığımız məktub bu sətirlərlə başlayır. Məktubda Aprel döyüşlərinin qəhrəmanlarından birinin - Milli Qəhrəman, polkovnik-leytenant Murad Mirzəyevin həyat yolundan danışan bir məqalə də əlavə edilib. Həmin yazını oxucularımıza təqdim edirik.

### Polkovnik-leytenant Murad Mirzəyev kim idi?

Bir gün Murad haqqında yazacağımı nəinki düşünməmişdim, heç ağlıma da gətirməmişdim. Demək ki, qismətdə bu da varmış. Bu da Allahın ona bəxş etdiyi, hər kəsə nəsib olmayan əbədi qəhrəmanlıq, şəhidlik zirvəsi, alın yazısıymış demək...

Murad Telman oğlu Mirzəyev 31 mart 1976-cı ildə Sabirabad rayonunun Muğangəncəli kəndində sadə bir ailədə dünyaya göz açmış, ilk təhsilini də elə orada almışdı. 1990-cı illərin əvvəlində ölkədə baş verən hadisələrə Murad da biganə qala bilmədi. Vətənin ağır günündə hərbçi olmağı özünə borc bilmişdi. Ailə bu arzunu tərəddüdlə qarşıladı, lakin o nəyin bahasına olursa-olsun, hərbi təhsil almağı, yeni qurulan ordumuzda zabit olmağı, generala qədər yüksəlməyi, Vətəninə, xalqına layiqincə xidmət etməyi qərara almışdı... Onun bu iradəsi qarşısında valideyinlərinin deyəcəyi söz qalmamışdı.

Murad qoç bürcündə doğulmuşdu. Ad günü 31 marta - Azərbaycanlıların Soyqırımı Gününə təsadüf etdiyindən qeyd etməzdi. Şəhid olduğu 3 aprel tarixindən 3 gün öncə 40 yaşı tamam olmuşdu. Ailə üzvüləri, qohum-qardaşları da onu hər il iyun ayının 26-da - Azərbaycan Silahlı Qüvvələri Günündə təbrik edirdilər. Muradın əsl bayramı da, elə ad günü də məhz bu tarixdə olurdu...

### Hərbi lisey, sonra Türkiyədə hərbi ali təhsil

1991-ci ildə C.Naxçıvanski adına hərbi məktəbə daxil olanda illərdir xəyalında qurduğu həyat başlamışdı, sanki... Təhsil illəri Birinci Qarabağ müharibəsinə təsadüf etdiyindən 1992-ci ildə Vətənin müdafiəsi üçün, Ağdam cəbhəsində düşmənə qarşı vuruşmaq üçün könüllü olaraq hərbi komissarlığa müraciət etmişdi. Lakin yaşının yetərli olmaması ilə əlaqədar müraciəti qəbul edilməmişdi və təhsilinə davam etməsi tövsiyə olunmuşdu. Beləcə, 1994-cü ildə xüsusi liseydə yüksək dərəcə ilə ilk hərbi təhsilini tamamlamışdı.

Murad Mirzəyev 1994-cü ilin iyun ayında Türkiyə Ali Hərbi Quru Qoşunları Məktəbinə daxil olmuş və 1998-ci ildə həmin məktəbi motoatıcı ixtisası üzrə birinciliklə bitirmişdi. Zabit diplomunu və xatirə “Qılınc və məzun üzüyü”nü o zaman Murada ümummilli lider Heydər Əliyev və Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl təqdim etmişdi. 600 nəfər yerli və əcnəbi hərbçi məzun arasından Murad birinci seçilərək “Onur naşkanı” təyin olunmuşdu. 1998-ci ilin sentyabrından “Eyirdir dağ komando” məktəbində 3 aylıq kurs keçmiş, 1999-cu ilin yanvar ayından İstanbulda yerləşən “Tuzla piyada məktəbi”ndə yeni kursa göndərilmiş və həmin ilin iyul ayında kursu müvəqqətiyyətlə bitirmişdi. 1999-cu ilin iyul ayından Türkiyə Silahlı Qüvvələrinin 4-cü motoatıcı briqadasında taqım komandiri vəzifəsində xidmət etmişdi. Yaxın qohumları, hətta həyat yoldaşı Fizzə xanım da Muradın Türkiyə ordusunda xidmət etməsindən o, şəhid olduqdan sonra tərcümeyi-halını oxuyarkən öyrəniblər.

Xarici ölkələrdə hərbi kurslarda 11 aprel 2016-cı il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində şəhid pilotlar və Murad Mirzəyevlə keçirilən vida mərasimində Muradın həyat yolu, xidmət etdiyi illər boyu yüksəlişdə olması və Vətənə qüsursuz xidmət etməsi xüsusilə vurğulanmışdı. O, 1999-cu ilin oktyabr ayından Azərbaycan Respublikasının Müdafiə nazirinin əmrinə əsasən motoatıcı taqım komandiri, 1999-cu ilin dekabr ayından kəşfiyyat bölüyündə kəşfiyyat taqım komandiri vəzifəsində xidmət etmişdi. 2000-ci ildən 2016-cı ilədək xüsusi təyinatlı qrup komandirinin müavinliyindən xüsusi təyinatlı hərbi hissənin komandiri vəzifəsinə qədər yüksəlmişdi. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə “Qüsursuz xidmətə görə” (2 dəfə), “Hərbi xidmətdə fərqlənməyə görə” (2 dəfə), “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yubiley medalı” (3 dəfə) olmaqla 7 fəxri medalla təltif edilmişdi.

Murad Mirzəyev 2005-2007-ci illərdə Amerika Birləşmiş Ştatlarının Virciniya ştatında ingilis dili və xüsusi təyinatlılar üçün nəzərdə tutulmuş “Ranger” kursunda hərbi təhsil almışdı. Qeyd edək ki, xüsusi təyinatlılar üçün nəzərdə tutulan “Ranger” müasir hərbin ən ağır təlimli və ən çətin kurslarından hesab edilir. Murad təlim nöqtələrində normativləri amerikalı və ingilislərdən də cəld yerinə yetirərək, bu çətin kursu müvəffəqiyyətlə bitirən ilk və yeganə azərbaycanlı olmuşdu. Sonrakı illərdə Türkiyə, Rumıniya və İordaniya Krallığında keçirilən hərbi kurslarda iştirak etmiş və təlimləri üstün dərəcə ilə başa vurmuşdu. Xidmətləri daim Azərbaycan Silahlı Qüvvələrinin ən peşəkar və yüksək hazırlıqlı zabitlərindən biri kimi qiymətləndirilmişdi.

2-5 aprel 2016-cı il tarixlərində keçirilən hərbi əməliyyatlarda, Talış kəndi ətrafında Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin zabiti, polkovnik-leytenant Murad Mirzəyev döyüş tapşırığını yerinə yetirərkən çox böyük şücaət və igidlik göstərmiş, komandiri olduğu hərbçilərlə birlikdə yüzlərlə ermənini məhv etmiş və tutduğu mövqeyi bir addım belə tərk etmədən son damla qanına qədər vuruşaraq qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə göstərdiyi şəxsi igidliyə görə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

### Biz səni təkcə Murad adı eşidəndə xatırlamayacağıq...

Həyatda elə insanlar var ki, qısa ömründə böyük dastanlara sığası işlər görür, hünər göstərirlər... Murad da 40 illik ömrünə belə şanlı səhifələr yazılmış nadir və seçilmiş insanlardan idi... Özündən sonra gələn nəsillərə vətənpərvərlik, igidlik, qəhrəmanlıq amalını ərməğan etdi.

Bu gün Muradı qəlbində, xatirələrində daim yaşadacaq həyat yoldaşı Fizzə, Vətənə yadigar qoyub getdiyi övladları Nurlan və Dəniz, onları heç vaxt yalnız qoymayacağına and içmiş yaxınları və ən əsası Azərbaycan xalqı və dövləti var.

Sən gedəndən sonra evindən qonaq-qaran heç çəkilmədi. Fizzəni, Nurlanı, Dənizi sənə söz verdiyimiz kimi yalnız qoymuruq. Həqiqət xanım, Səlim müəllim artıq sənin evinin daimi sakininə çevrildilər...Övladların hələ də yolunu səbirsizliklə gözləyir, hey səndən danışırlar. Hər telefon zəngi gələndə “Ana, bəlkə, atamdır” - deyə ürəyimizi parçalayırlar, hələ də özümüzdə cəsarət toplayıb onlara sənin əbədiyyətə qovuşduğunu deyə bilməmişik...

İndi Murad Mirzəyev gənclərimiz üçün, gələcəyimiz üçün vətənpərvərlik nümunəsidir. Həyatda ən ali məqsədi işğal altındakı torpaqlarımızın, doğma Qarabağımızın düşmən işğalından azad edilməsi idi. Murad şəhid olana kimi bir ailənin qəhramanıydı, indi bütün Azərbaycan xalqının, millətinin qəhramanına çevrilmişdir. Qəhrəmanımızla keçirilən vida mərasimi də, Fəxri xiyabanda dəfn olunması da dövlətimizin Murada verdiyi layiqli qiymətin bariz nümunəsidir. Dəfn mərasimində bir daha şahidi olduq ki, xalq öz qəhrəmanını qəbul etmiş, onu öz oğlu, qardaşı, balası kimi bağrına basmışdır.

Məzarında rahat yat, əziz qardaşım, gözün arxada qalmasın, cənab polkovnik, sənin yadigarların artıq bu Vətənə əmanətdir. Biz səni, sadəcə, Murad adı eşidəndə xatırlamayacağıq. Biz Tərtər, Ağdərə, Laçın, Şuşa, Qarabağ, üçrəngli Azərbaycan bayrağı, Vətən, Azərbaycan sözlərini hər eşidəndə səni xatırlayıb yad edəcəyik...

Qısa, lakin çox mənalı ömründə yaddaşımıza xoş xatirələr yazdığın üçün, bizlərə belə bir fəxarət hissini yaşatdığın, ordumuzun başını uca etdiyin üçün xalqımızın əbədi ehtiramını qazanmısan. Sən həmişə söyləyirdin: “Mən bir gün Vətən uğrunda şəhid olsam, başınızı dik tutun, sadəcə, “Vətən sağ olsun” deyin!” Cənab Milli Qəhrəman, cənab polkovnik Mirzəyev, indi biz də belə deyirik: Vətən sağ olsun!

## Tələbələrə təqaüdlərin verilməsi qaydalarında dəyişiklik edilib

“Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası”nda dəyişiklik edilib. AZƏRTAC xəbər verir ki, bu barədə qərarı Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov imzalayıb.



Dəyişikliyə əsasən, ali və orta ixtisas təhsili müəssisələrində, həmçinin magistratura səviyyəsi üzrə Azərbaycan Milli Elmlər Akademiyasında akademik məzuniyyət götürən doktorant və tələbələrə cari tədris semestri müddətində təqaüd tam həcmdə ödəniləcək və həmin şəxs akademik məzuniyyətdən qayıtdıqda ona təqaüd yalnız növbəti imtahan sessiyasının nəticələrinə əsasən ümumi əsaslarla veriləcək. Peşə təhsili müəssisələrində akademik məzuniyyət götürən tələbələrə təqaüdün verilməsi onlar akademik məzuniyyətə getdiyi gündən dayandırılacaq və akademik məzuniyyətdən qayıtdıqda tələbələrə təqaüdün verilməsi davam etdiriləcək.

# YAP Masallı rayon təşkilatında veteranlarla görüş keçirilib

Dünən YAP Masallı rayon təşkilatında veteran YAP üzvləri ilə görüş keçirilib. Görüşü giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev ölkənin sosial-iqtisadi inkişafında əldə olunan uğurlardan danışaraq, son illər respublikamızın sürətlə inkişaf etdiyini diqqətə çatdırıb. Həmçinin, rayonda görülən işlərdən söz açaraq, bu işlərin həyata keçirilməsində ağsaqqal, ziyalı sözünə və məsləhətinə böyük ehtiyacın duyulduğunu vurğulayıb: "Ulu Öndər Heydər Əliyev yolunun Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan inkişaf edir və ölkədə sabitlik mövcuddur".





S.Əliyev, çıxışında ölkə Prezidentinin öz vətəndaşına daima diqqət və qayğı göstərdiyini bildirib: "Məhz bu baxımdan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial-iqtisadi siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Prezident İlham Əliyev bütün çıxışlarında bu barədə bildirib ki, Azərbaycanda aparılan siyasətin prioritetlərindən biri onun sosial xarakter daşımasıdır. Ən əsası isə, yürüdülən siyasətin mərkəzində Azərbaycan vətəndaşının sosial vəziyyətinin və rifah halının yaxşılaşdırılması və hüquqlarının təmin edilməsi dayanır. Dövlət başçısının vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, ölkəmizin daha da inkişaf etdirilməsinə xidmət edən sərəncamları, fərmanları və qərarları realaşdırılan böyük sosial islahatlar paketinin tərkib hissəsidir".

Görüşdə iştirak edən veteran YAP üzvlərindən Əşrəf Mövsümov, Əfrail Fərziyev və başqaları Azərbaycanda ağsaqqalların və veteranların ictimai-siyasi fəallığının təmin edilməsi üçün hər cür şərait yaradıldığını və onlara göstərilən diqqət qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

*R.HÜSEYNOVA*

# İspaniya portalı Ermənistanın Azərbaycanın tarixi abidələrinə qarşı vandalizmindən yazır

2019-cu ilin 18 fevral tarixində mərkəzi Nyu-York şəhərində olan "Hyperallergic" internet portalında dərc edilmiş "Azərbaycan erməni mədəniyyətini məhv edir" başlıqlı məqaləyə cavab olaraq, İspaniyanın "Diario Siglo XXI" elektron portalında jurnalist Peter Tase tərəfindən Ermənistan tərəfindən həyata keçirilən ölkəmizin tarixi və dini abidələrinə qarşı vandalizmindən bəhs edən "Azərbaycana qarşı erməni faşizminin təbliğatı" başlıqlı məqalə dərc edilib.



Viajes y Lugares | Display | Tienda | Diseño | Grupo | Versión móvil

SIGLO XXI
Diario digital independiente, plural y abierto

15° ANIVERSARIO
Fundado en noviembre de 2003

Búsqueda personalizada | Buscar

Opinión | España | Mundo | Economía | Deportes | Cultura | Sociedad | Ciencia

ANÚNCIATE AQUÍ
Y ayúdanos a seguir siendo independientes 15 años más
SIGLO XXI
Diario digital independiente, plural y abierto

Internacional | Etiquetas: Armenia Azerbaiyán Fascismo GOBIERNO

## Propaganda fascista de Armenia en contra de Azerbaiyán

Es evidente de que la máquina de propaganda de Armenia en Ereván y hacia el mundo han constantemente violado y acosado al pueblo trabajador y honesto de Azerbaiyán

Peter Tase
Jueves, 28 de marzo de 2019, 16:49 h (CET)

Tweet | Me gusta 0

El 18 de febrero del 2019, Hyperallergic, un periódico digital con base en Nueva York, ha publicado un ensayo bien largo, glorificando, y valorando la supuesta arquitectura religiosa y cultura de Armenia en la tierra antigua de Azerbaiyán, República Autónoma de Nakhchivan. En realidad dichos elementos – mencionados en esta publicación – de la arquitectura religiosa y de otros objetos culturales le pertenecen a la milenaria cultura de Azerbaiyán y a los pueblos autóctonos de Azerbaiyán, llamados los Albaneses del Cáucaso. Los

Noticias relacionadas

**Reino Unido hacia nuevas elecciones generales**
May ya no puede gobernar más pues es la o el jefe de gobierno que más derrotas y más duras ha tenido en la historia reciente británica

**La India se consolida como el primer mercado exportador de cuero y piel a España**
Casi el 6% de la importación total del cuero y productos de piel de nuestro país procede de la India

**Cinco ONG piden al Gobierno que suspendan la venta de armas a Arabia Saudí y Emiratos Árabes**
Entre 2016 y noviembre de 2018, cada 25 minutos murió una persona en Yemen a causa del conflicto

**Senegal, el país de la "buena acogida"**
La ablación es ilegal pero aún existen etnias minoritarias que la practican debido a la falta de persecución por parte del Estado

**Brexit: seis puntos clave tras la prórroga de la UE a Reino Unido**

AZƏRTAC xəbər verir ki, məqalədə yüksək sürətlə inkişaf edən Azərbaycan Respublikasının mədəni və dini abidələrin qorunmasına xüsusi diqqət ayırdığı, o cümlədən Bakı şəhərinin mərkəzində erməni kilsəsinin, habelə həmin kilsənin 5500 kitabdan ibarət kitabxanasının qorunub-saxlandığı qeyd edilir. Məqalədə, həmçinin Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyi, işğal edilmiş ərazilərdə yerləşən bütün tarixi, memarlıq və dini abidələrin dağıdıldığı, 1 milyondan çox azərbaycanlının öz doğma yurdlarından didərgin salındığı vurğulanır. Ermənistanın öz ərazisini Azərbaycan torpaqları hesabına genişləndirməsi siyasətinin regionda sülh və tərəqqiyə təhlükə yaratdığı bildirilir.

Ermənistanın öz təcavüzkar siyasəti nəticəsində ağır iqtisadi-sosial şəraitlə üzləşdiyi, digər tərəfdən isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Avropa və dünyada sülh və tərəqqinin müdafiəsinə yönəlmiş xarici siyasət xətti yürütməsi fonunda ölkənin gündən-günə siyasi və iqtisadi cəhətdən çiçəkləndiyi qeyd olunur.

# Özbəkistan portalı: "Bakıdakı İçərişəhər səyyahların sevimli məskənidir"

Özbəkistanın kun.uz portalında özbək dilində "Bakıdakı İçərişəhər səyyahların sevimli məskənidir" sərlövhəli məqalə verilib. AZƏRTAC xəbər verir ki, bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistin Azərbaycana mediaturu təşkil olunub və onlar Bakını və regionlarımızı gəziblər. Məqalədə bildirilir ki, İçərişəhər Bakının ürəyidir, bu abidə şəhər 2000-ci ildə UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Yazıda qeyd edilir ki, qoruq ərazisi hələ tunc dövründən yaranıb. Arxeoloji tədqiqatlar nəticəsində müəyyənləşib ki, artıq VIII-IX əsrlər ərzində İçərişəhərdə xeyli əhali yaşayıb, burada sənətkarlıq və ticarət inkişaf edib.

XV əsrdə isə Şirvanşahlar öz iqamətgahlarını Şamaxıdan Bakıya köçürüb. Bildirilir ki, 1748-1806-cı illərdə Bakı və onun mərkəzi olan İçərişəhər Bakı xanlığının paytaxtı olub. 1806-cı illərdə Bakının ruslar tərəfindən işğal edilməsi və neft bumunun yaşanmasından sonra şəhərin inkişaf və genişləndirilməsi prosesi başlayıb, insanlar İçərişəhər divarlarından kənarda da sıx məskunlaşmağa başlayıb. Məqalədə Şirvanşahlar sarayı, Qız qalası haqqında da ayrıca məlumat verilir.

# "Nar TV" ilə ən maraqlı filmlər və TV serialallar Azərbaycan dilində

Azərbaycan telekommunikasiya bazarında ilk onlayn TV tətbiqi olan "Nar TV"-də yeniliklər edilib. Artıq "Nar TV" ilə TV kanalları və verilişlərlə yanaşı, film həvəskarları üçün sevdikləri filmlər, seriallar daha əlçatan olacaq. Belə ki, "Nar TV" tətbiqinə əlavə edilən geniş film bazası ilə seçilmiş filmləri Azərbaycan dilində də izləmək mümkün olacaq. "Nar TV" tətbiqində hər kəsin zövqünə uyğun filmlər mövcuddur və tətbiqdə filmlər kateqoriyalarına görə bölünüb. Qeyd edək ki, "Nar"-ın təqdim etdiyi bu məhsulun bütün üstünlüklərindən faydalanmaq üçün istifadəçilər "Google Play" və "App store"-dan yenilənmiş tətbiqi yükləməlidir.




"Nar TV" tətbiqi vaxt və məkan sərhədi tanımır. Belə ki, "Nar TV" abunəçilərə istənilən məkanda və vaxtda mobil telefonlarda və ya tabletlərdə idman, əyləncə, uşaq, film, xəbər də daxil olmaqla, 100-ə qədər seçilmiş yerli, regional və beynəlxalq televiziya kanallarına və filmlərə baxmaq imkanı verir. Yeni qeydiyyatdan keçən istifadəçilər 1 ay ərzində "Nar TV" tətbiqindən ödənişsiz yararlana biləcəklər. "Nar TV"-nin digər üstünlüyü, vaxtınız olmadıqda ötürdüyünüz proqramlara 12 saat ərzində baxmaq mümkünlüyüdür. Aylıq abunə haqqı cəmi 3 AZN-dir. Abunəçilər "Nar TV"-yə "Nar"-ın 4G şəbəkəsindən istifadə etməklə, tam keyfiyyətdə baxa bilərlər.

"Nar TV"-də valideyn nəzarət xidməti də mövcuddur. Bunun üçün xüsusi kanalları PİN kod vasitəsilə məhdudlaşdırmaq olar. Qeyd edək ki, "Nar TV" tətbiqində TV kanalları "Uninet", filmlər və seriallar isə "MEGOGO" ilə əməkdaşlıq çərçivəsində təqdim edilir. "Nar TV"-nin digər üstünlükləri barədə daha ərtaflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

# Əlilliyi olan şəxslərə qulluq edənlərə təqaüdün təyini üçün hansı sənədlər tələb olunacaq?

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə aprelin 1-dən sosial müavinət və təqaüdlər 100 faiz artırılmaqla yanaşı, yeni təqaüd növlərinin təsis edilməsi də nəzərdə tutulub. Sərəncama əsasən, I qrup əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü (50 manat) təsis edilib.



**Bəs həmin təqaüdlərin ödənişi necə aparılacaq və təyin olunması üçün hansı sənədlər tələb ediləcək?**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, hazırda bununla əlaqədar müvafiq icra mexanizmi hazırlanır. Sağlamlıq imkanları məhdud uşaqlara qulluq edənlərə təyin olunan təqaüdün onlara ödənilən sosial müavinətlə birgə ödənilməsi, bunun üçün hər hansı bir sənədin tələb olunmaması nəzərdə tutulur. I qrup əlilliyi olan şəxslərə qulluğa görə təqaüd isə qulluq edən şəxsin özünə ödəniləcək. Hazırlanmış ilkin layihədə qulluq edənin müəyyən edilməsi üçün tələb olunan sənədlərə qulluq edənin şəxsiyyət vəsiqəsi, müvafiq yerli icra hakimiyyəti orqanının vətəndaşın I qrup əlilliyi olan şəxsə qulluq göstərməsinə dair arayışı və Dövlət Sosial Müdafiə Fondunun yerli bölməsinə ərizəsi daxildir.

# Ermənistan milyardlarla dollar məbləğində ianələr itirir

***İşğalçı Ermənistanın müdafiə naziri David Tonoyanın ABŞ-a səfəri və burada Amerika tərəfi ilə müdafiə sahəsində əməkdaşlıq barədə müzakirələr aparması hazırda diqqət mərkəzindədir. Tonoyanın bir neçə ştatda olması və səfərinin sonunda Nyu-Yorkda erməni icmasının nümayəndələri ilə görüşməsi heç də təsadüfi sayıla bilməz. Əslində, müdafiə nazirinin ABŞ-a səfər etməsi yalnız simvolik hesab edilə bilər. Ona görə ki, "məxməri inqilab"dan sonra, Ermənistan-Amerika münasibətləri böhran vəziyyətindədir və olduqca passivdir.***



Ermənistan-Amerika əlaqələrində böyük bir boşluq var, ermənilər ümid edirlər ki, müdafiə nazirinin səfəri bu Nəboşluğu qismən də olsa" doldura bilər. David Tonoyan öz səfəri zamanı Amerika silahlarının Ermənistan tərəfindən alınması barədə də danışıb. ABŞ prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi Con Bolton da bu barədə bəyan etmişdi. Daha doğrusu, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi Ermənistana səfəri zamanı bunu eyham olaraq vurmuşdu və bu, Rusiya silahlarına daha çox meyil edilməsinə görə işğalçı dövlətə barmaq silkələmək kimi başa düşülür.

David Tonoyanın ABŞ-a səfəri Ermənistan üçün ABŞ-ın şübhələrini aradan qaldırmaq baxımından, son dərəcə vacib hesab olunur. Heç uzağa getmək lazım deyil və yalnız keçən həftə NATO-nu rəhbərliyi altında Gürcüstanda keçirilən təlimlərdə Ermənistanın iştirak etməməsi Amerika tərəfində müsbət reaksiya doğumadığı sirr deyil. Çox güman ki, David Tonoyan öz səfəri zamanı müxtəlif bəhanələr və arqumentlər uydurmaq üçün cəhdlər də edib ki, Amerika tərəfinin mənfi reaksiyası aradan qaldırılsın.

### Ermənistan tərəfi ənənəsinə sadiq qalaraq, münasibətləri yalnız hansısa kömək, yardım və iyanə almaq niyyəti ilə qurur

Ümumilikdə, Amerika-Ermənistan münasibətlərinə işğalçı dövlət çox maraq göstərir və qarşı tərəfi istifadə olunmayan imkanlar hesab edir. Nəzərə almaq lazımdır ki, erməni nümayəndələrdən hər kim Birləşmiş Ştatlara səfər edirsə, yalnız yardımlar, kömək və iyanələr almaq niyyəti güdür. Nümayəndələrin bəyanatları da bunu təsdiq edir və hər bir səfər edən erməni öz səfərindən danışdığı zaman, Amerika tərəfi Ermənistana hər bir istiqamətdə yardım göstərməyə hazırdır deyə bəyanat verir. Bu isə, öz növbəsində, qeyd olunanları təsdiq edir və bəlli olur ki, Ermənistan tərəfi bu vaxta qədərki ənənəsinə sadiq qalaraq, münasibətləri yalnız hansısa kömək, yardım və iyanə almaq niyyəti ilə qurur.

Ermənistan hakimiyyəti son bir neçə ayda alternativ maliyyə yardımları almadığından, son dərəcə narahatçılıq keçirdiyi göz qabağındadır. Müxtəlif istiqamətlərdə lahiyələşdirilən maliyyə yardımlarından və iyanələrdən məhrum olan işğalçı ölkə bu məhrumiyyətlərlə barışmaq istəmir. Buraxılmış və istifadə edilməmiş fürsətlər arasında 8 milyard ABŞ dolları məbləğində Ermənistanın energetika sisteminə sərmayə qoyuluşuna dair bir bəyanat səfalət içərisində olan erməni cəmiyyətində, xüsusilə, yer alır və qəbuledilməz hesab olunur. Bu bəyanat hələ əvvəlki hökumətin dövründə ABŞ-ın keçmiş səfiri Richard Mills tərəfindən irəli sürülmüşdü. Bu bəyanatdan iki il keçsə də, "məxməri inqilab"dan sonra hakimiyyətə gələn siyasi komanda müvafiq təşəbbüs və təkliflərini aydınlaşdırma imkanı tapsa da, bu, baş vermədi. Yəni acınacaqlı durumda olan Ermənistan milyardlarla dollar itirməkdədir və mövcud hakimiyyət bununla heç cür barışa bilmir. Heç şübhəsiz ki, indi əl-ayağa düşən, daha dəqiq desək, amerikalıların əl-ayağına dolaşan ermənilərin yardım və iyanələr üçün dəridən-qabıqdan çıxmaları başadüşüləndir.

Göründüyü kimi, işğalçılar, həqiqətən də, Amerika-Ermənistan əlaqələrinə ölkə üçün yardım imkanları rakursundan yanaşırlar. Hətta ermənilər hesab edirlər ki, hərəkətsizlikləri, daha dəqiq desək, amerikalıların ayaqları altına sərilməməkləri onları bu imkanlardan, yardım və iyanələrdən bundan sonra da məhrum edəcək. Onlar bu hərəkətzislik adlandırdıqları əl-ayağa dolaşmaq, dilənmək prinsplərinin passivliyini ölkə üçün risk də hesab edirlər. Əslində, ermənilərin bu çür düşüncələrini, risk altında qalacağını dərk etmələrini başa düşmək çətin deyil. Çünki heç bir iqtisadiyyatı, heç bir uğuru, nailiyyəti, gələcək perspektivləri, gəlir yeri olmayan, yalnız yardım və iyanələrə göz dikən ölkənin təlaşı başadüşüləndir.

### Yeni ideyalar, yeni layihələr və yeni proqramlar olmadan və siyasi iş aparılmadan ABŞ-ın Ermənistana yardım etməsi mümkünsüzdür

Nümunə üçün qeyd etmək olar ki, məsələn, "Lidian" şirkəti erməni hökumətinə qarşı beynəlxalq arbitrajda prosesə başlamaq niyyətində olduğunu elan edib. Xatırlatmaq yerinə düşərdi ki, 400 milyon dollar sərmayə yatıran "Lidian" Ermənistanın tarixində ən böyük investisiya yatıran şirkətdir. Hazırda sözügedən şirkət nəinki investisiya yatırımından imtina edir, hətta Ermənistana qarşı beynəlxalq arbitrajda prosesə başlamaq qərarındadır. Başqa sözlə, "Lidian" Ermənistan-Amerika münasibətlərinin məzmununda arbitraja getmək niyyətindədir. Deməli, işğalçı ölkə, həmin ölkədə hazırkı hakimiyyət və ümumilikdə, erməni cəmiyyəti itirdiklərinin fərqindədir.

Son vaxtlar Milli Elmlər Akademiyasında baş nazir Nikol Paşinyan bildirib ki, problem pulun mövcudluğunda deyil, problem məqsəd və ideyalardadır. Erməni cəmiyyəti hesab edir ki, bu model Ermənistan-Amerika münasibətlərinin vəziyyətində tam tətbiq edilə bilər. Ermənilər hesab edirlər ki, ABŞ Ermənistana yardım etməyə hazırdır, bu məqsədlə Ermənistan üçün 8 milyard dollar, bəlkə də daha böyük ehtiyatlar ayrıla bilər. Amma ermənilər unudurlar ki, bunun üçün yeni ideyalar, yeni layihələr və yeni proqramlar lazımdır. Təbii ki, siyasi iş aparılmadan, yeni layihələrlə çıxış etmədən, bunun mümkünsüz olduğu gün kimi aydındır.

### ABŞ-dan maliyyə yardımı gözləməyin ağılsızlıq olduğunu ermənilər özləri də etiraf edirlər və Ermənistanın yardımlara bel bağlaması gülüncdür

Onu da qeyd etmək yerinə düşərdi ki, ruslarla münasibətləri prioritet hesab etdikcə, yardım və iyanə almaq kimi arzuları hələ ermənilərin ürəklərində, özü də elə arzu olaraq qalacaq. Bunu erməni mediası da təsdiq edir və bir çox mətbuat səhifələrində biz bunun şahidi oluruq. Şahidi oluruq ki, ermənilər Rusiya ilə münasibətlərin

Ermənistan üçün bir nömrəli prioritet olduğu müddətdə ABŞ-dan maliyyə yardımı gözləməyin ağılsızlıq olduğunu özləri də etiraf edirlər.

Heç amerikalılar da ermənilərin ruslardan əl çəkəcəklərinə inanan deyillər. Çünki bilirlər ki, Rusiyanın dəstəyi olmadan, Ermənistan mövcud belə ola bilməz və bunu ermənilərin özlərinin də çox yaxşı başa düşdüyünü xatırlatmağa ehtiyac yoxdur. Onu da xatırlatmağa ehtiyac yoxdur ki, iqtisadiyyatı az qala sıfır səviyyəsində olan bir ölkənin siyasəti də, hərbisi də, bütün digər sahələri də müvafiq olaraq, yox dərəcəsində olmalıdır və bu ölkə daim asılılıq halında yaşamağa məhkumdur. Ermənilərn bu məhkumluqla daha çox ruslardan asılı olduqları da gizli məqam deyil. Amerika tərəfi bilir ki, Ermənistan tərəfi nə qədər "Rusiyaya yaxın deyilik, yaxud bundan sonra yaxın olmayacağıq" desə də, bu doğru ola bilməz və bunu ifadə etdikləri halda, amerikalılara yalan danışmış olacaqlar. Bu baxımdan, ABŞ kimi fövqəldövlətin yardımına Ermənistanın bundan sonra bel bağlaması son dərəcə gülünc görünür. Çətin ki, Birləşmiş Ştatlar ermənilərin bu vəziyyətində onlara yardımlar və iyanələr ayırsın.

Heç bir qlobal layihədə iştirak etməyən, hətta qonşu ölkə hesab etdikləri Azərbaycanın müəllifi olduğu layihələrdən belə kənarlaşdırılan Ermənistanın çox acınacaqlı durumda olduğu bir reallıqdır. Bu reallıqla qarşılaşan ermənilər artıq küncə qısılmış, marginallaşmış bir durumda olduqları halda, mövcudluqlarını yardımlar, iyanələr hesabına qorumaq məcburiyyətindədirlər və indi ayrılacaq hər dollar bir yana, sentə belə ehtiyac duyurlar. Belə bir ehtiyac içində olan işğalçılar hazırda düşünülməmiş addımlar, terrorçuluq siyasəti sayəsində daha acınacaqlı duruma düşdüklərinin fərqindədirlər. Məhz buna görə də, erməni mətbuatı həyəcan təbili çalır ki, Ermənistan pullar, özü də səfalət içində olan bir ölkə üçün böyük pullar - milyardlarla dollar itirir.

*İnam HACIYEV*

## Nikol Paşinyan: Polisə silahları necə təhvil verdiyimi xatırlamıram



Ermənistanın Baş naziri Nikol Paşinyan hal-hazırda Yerevanın Şengavit inzibati rayonunun iqamətgahındakı ümumi yurisdiksiyasındadır. SİA Ermənistana məxsus aysor.am saytının məlumatına istinadən xəbər verir ki, məhkəmədə Nikol Paşinyan "Yelk" blokunun üzvü Ayk Sarkisyan və "Manax" ləqəbi ilə tanınan Artur Ayvazyan arasında bir insident ilə bağlı bir işdə şahid olaraq sorgulanır. Nikol Paşinyan, Hayk Sarkisyanla tanış olduğunu, 2017-ci il parlament seçkilərində seçki qərargahının rəhbəri olduğunu bildirib. "Bu insidentə qədər onunla dostluq münasibətlərim vardı", - deyə Paşinyan vurğulayıb. Erməni baş nazir insident zamanı istifadə olunan silahın polisə necə təhvil verildiyini xatırlamadığını deyib.

"Səhv etmirəmsə, polis Teryanın ünvanına getmədi. Mən isə hadisə yerinə getdim, sonra isə Malatiya polis bölməsinə yollandım və səhv etmirəmsə, silahı orada təhvil verdim"-deyə baş nazir bildirib.

*İnam Hacıyev*

# Müsavat-AXCP söyüşməsi “Milli Şura” və mitinq kontekstində

***Əslində, Müsavatla AXCP arasında uzun illərdən bəri davam edən barışmaz savaşın bu gün daha sərt şəkildə davam etməsinin səbəblərindən biri də, artıq neçə gündür səngiməyən mitinq söhbətidir. Beləliklə, “Milli Şura” kontekstində baş verən hadisələrin söyüş və küfrə səbəb olması cəbhəçilərlə müsavatçılar arasındakı düşmənçilikdir.***

Yeri gəlmişkən, biz bu iki partiyanın bənzər savaşlarını daha öncələr də görmüşük və şahidləri olmuşuq. Gah “Milli Şura”-AXCP cütlüyü ayrı, gah da müsavatçılar ayrılıqda mitinqlər keçirərək, bu vasitə ilə müxalifətin parçalanmasına, necə deyərlər, xidmət göstəriblər. Hətta elə olub ki, müsavatçıların aparıcı funksionerləri “Milli Şura”nın mitinqini kənardan seyr etsələr belə, AXCP rəhbərliyi onları, ümumiyyətlə, görməzliyə vurub, salamlamayıb da. Bu, elə də uzaqda olan tarix deyil, əksinə, yaxın zamanların hadisələridir. Yəni müxalifətin “konsert” proqramları dəyişilməyib...

Artıq sosial şəbəkələrdə buynuz-buynuza gələn “qoçlar” son güclərini toplayıb, bir-birlərinə ən ağır, hətta ölümcül zərbə vurmağa çalışırlar.

### AXCP-nin mətbuat xidmətinin rəhbəri Natiq Ədilov: “Müsavatçılar, yaxşı hərəkət eləmirsiniz!”

Bu arada, Fransada mühacir həyatı yaşayan AXCP-nin mətbuat xidmətinin rəhbəri Natiq Ədilovun paylaşdığı status siyasi qurumlar arasında yanan odun üzərinə sanki benzin tökürdü. “Müsavat funksionerləri ilə mübahisə etmək fikrimiz yoxdur. Əlimizdə vacib iş var” deyə yazan AXCP təmsilçisi bununla müsavatçıları, necə deyərlər, aşağılayıb, öz fəaliyyətlərini qarşı tərəfin fəaliyyətindən vacib hesab edib.

O, qeyd edib ki, “Milli Şura” da, Müsavat partiyası da ayrı-ayrılıqda mitinq müraciətlərini davam etdirir. Ancaq bu zaman fərqli taktikadan istifadə olunur. Belə ki, mitinqlər hər zaman “Məhsul” stadionuna və 6-cı günlərə təyin olunub. Müsavat partiyası isə mitinq üçün başqa meydanlar tələb edib, hazırkı




mərhələdə yürüşlərə və bazar günü mitinqlərinə icazənin verilmədiyi halda, məhz bazar günləri yürüş tələb olunub: “Bununla da, ictimaiyyətə əvvəlcədən məlum olub ki, elan olunmuş bu yürüş-mitinq faktiki keçirilməyəcək. Əlbəttə, bazar günləri, üstəlik də, yürüşlər keçirmək Müsavat partiyasının hüququdur” yazan Ədilov dolayısı ilə müsavatçıları hakimiyyətə işləməkdə ittiham edərək bildirib ki, müsavatçıların həftənin bazar günlərində yürüşlü mitinq istəməsi “Milli Şura”-AXCP cütlüyünün mitinqlərinin sönük keçməsi marağına hesablanıb. AXCP-çi funksioner, əksinə, müsavatçıların mitinq keçirə bilməyəcəklərini iddia edib və buna görə “Milli Şura”nın mitinq qərarına pəl vurduqlarını yazıb. “Baş tutmayacağı əvvəlcədən məlum olan mitinq müraciətinə görə bütün həftəni məşğul etmək, başqalarının və həm də real mitinq keçirmək məqsədilə etdiyi mitinq təşəbbüslərinə qısqanclıqla yanaşmaq, üstəlik, müxalifətdaxili münasibətləri gərginləşdirmək üçün ardıcıl təşəbbüslər göstərmək, yumşaq desək, heç də yaxşı hərəkətlər deyil” deyə N.Ədilov qarşı tərəfə ismarıcını yollayıb.

### Müsavatın mətbuat xidmətinin rəhbəri: Mustafa Hacıbəyli: “Rəhbərliyiniz nə zamansa, buna görə izahat verməli olacaq”

Lakin müsavatçıların və tərəfdarlarının cavabları gecikməyib. Belə ki, Müsavat partiyasının başqanı Arif Hacılının qardaşı, təşkilatın mətbuat xidmətinin rəhbəri Mustafa Hacıbəyli, əksinə olaraq, qeyd edib ki, əslində, müsavatçılar deyil, cəbhəçilər və “Milli Şura” üzvləri onların mitinq-yürüş ideyalarına qarşı çıxış edir, bu vasitə ilə hakimiyyətə işləyirlər. “Yaxşı olardı ki, cəbhəçilər nəyə görə birgə mitinq keçirmək ideyasını dəstəkləmədiklərini izah etsinlər” deyə qeyd edən Hacıbəyli bu vasitə ilə AXCP sədri Əli Kərimlinin bostanına daş atıb və onun bütün müxalifəti parçalamaq əmrini yerinə yetirdiyini iddia edib: “Rəhbərliyiniz nə zamansa, buna görə izahat verməli olacaq”.

### Daha ağır təhqirlərə start verilib

Cəbhəçilər N.Ədilovun statusu altında başladılan virtual müharibəyə daha aqressiv münasibət sərigləyiblər. Misal üçün, AXCP-nin Nizami rayon şöbəsinin sədri Paşa Umudov Müsavat funksionerinin qaşınmayan yerdən qan çıxardıqlarını bildirərək, əslində, mitinqlə bağlı rəqiblərini qabaqlamaq ənənəsini Müsavatın gətirdiyini iddia edib. Müsavat partiyasının Səbail rayon şöbəsinin sədri Zakir İsmayıl isə, öz növbəsində, həmin rəyə cavabında şöbə sədrini yalan danışmaqda ittiham edib və ağır söyüş yazıb. P.Umudov onu təhqir etdiyi üçün Z.İsmayılı mədəniyyətsiz adlandırıb. Bundan sonra tərəflər bir-birilərini ən ağır tərzdə təhqir etməkdə davam ediblər.

### Müsavatçı Tofiq Yaqublu “Milli Şura”nı dəstəklədiyinə görə müsavatçılar tərəfindən xain adlandırıldı

Növbəti maraqlı məqam isə, hələ də Müsavat partiyasının üzvü olmasına rəğmən, AXCP sədri Ə.Kərimlinin dirijor çubuğu ilə idarə edilən, üstəlik, “Milli Şura”da koordinasiya şurasında təmsil olunan Tofiq Yaqublu ilə bağlıdır. O, mövzu ilə bağlı paylaşdığı statusda “Milli Şura”nın qərarının əvvəldən olduğunu söyləyib və faktiki olaraq, təmsil olunduğu Müsavat partiyasına qarşı xəyanətini davam etdirib. Ona görə də, onun bu fikirləri müsavatçıların kəskin etirazlarına səbəb olub. Hətta T.Yaqublunun ya Müsavatı, ya da AXCP-ni seçməsi ilə bağlı qarşısına tələb qoyulub. Məsələn, Müsavat partiyasının məclis üzvü Valeh Hümmətoğlu statusun altından yazıb ki, T.Yaqublu “Milli Şura”nın tərəfini tutmaqla müxalifətin birliyinə zərbə vurur və birgə mitinqlərdən imtina edir. “1998-ci və 2003-cü ilin taktikası” deyə müsavatçı funksioner xatırladıb.

Nəticədə, rəylərdə söyüş söyən müsavatçılar və cəbhəçilər ən ağır formada bir-birilərini ağır tərzdə təhqir ediblər. Bu vəziyyət hal-hazırda da davam etməkdərir. Necə deyərlər, söyüşün biri bir qəpikdən...

**Rövşən RƏSULOV**



*Vətən daşına dönük çıxan naqislər...*

RƏFİQƏ

***Bu, aksiomadır: erməni xüsusi xidmət orqanlarına xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. O zaman ermənilərin dostları ilə dostluq edən “Milli Şura”çılar kimdir? Fikirləşmədən cavab bəllidir: Vətən daşına dönük çıxanlar. Bir də Vətən bir millətin üzərində yaşadığı, torpağı Vətən edən isə millətin onda yaşadığı, sığındığı və maddi-mənəvi varlığını davam etdirən yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik.***

Bu gün “Milli Şura”nın satqın kadrosu olan AXCP sədri Əli Kərimli üçün satıb-satılmaq adi hal alıb. Çünki bu ölü qurum xəyanət kadrolarının cəm olduğu bir üfunət yeridir. Bu yerdə xəyanət kadrosunun ən parlaq “simaları” toplaşıb. Elə zənn edirlər ki, hay-küy salmaq güclü olmaqdır. Elə bu səbədəndir ki, Avropa zibilxanalarını və tualetlərini gəzənlər, ciyərlərini nəcis havası ilə zibilliyənlər başlayırlar gecələr bayquşlartək facebookda ulamağa. Soruşmaq istərdim: nə vaxta qədər ulayacaqsınız? Adını “siyasətçi” qoyan bu “siyasi mühacir” bayquşlar, elə zənn edirlər ki, bunlardan başqa kimsə söyüş-zad bilmirmiş və s. Ancaq anlamırlar ki, əxlaqsız, mənəviyyatsız mərdimazarların səviyyələri elə belə də olmalıdır. “Siyasi mühacir” adı ilə Amsterdamın “gey klubları”nın dəlmə-deşiklərində gizlənən Orduxan Teymurxanının, Vidadi İsgəndərlinin, Məhəmməd Mirzəlinin, Turalın, Emin Millinin, Qurban Məmmədovun və bu kimi əxlaqsızların Ə.Kərimli, Cəmil Həsənli tərəfindən nakişi şinelindən çıxaraq, istədikləri donu geyindirirlər. Əslində, elə onlara yaraşan da budur.

Çünki istər Vidadisi olsun, istər Orduxanı, Q.Məmmədovu, bu kimi gədaları, zaman gələcək, heç qəbir də qəbul etməyəcək. Çünki bu, murdar və iyrənc əxlaqsızların üstündə bayquşlar belə ulamayacaq. Çünki bu o Vidadi İsgəndərlidir ki, atasının qəbri adından təxribat düzənləyib, sonradan onu başqalarının üzərinə atdı! Beləsinə insan deyil, heç heyvan da deyil, elə birbaşa murdar məxluq demək olar. Bax, budur, Avropada “kişilik mücəssəmələri” və bu gün biz onları layiq olduqları adlarla çağırırıq. Çünki Vətən daşına dönük çıxanların bir adı var: ALÇAQ və ŞƏRƏFSİZ!

# “Siyasi mühacir” əqidə yoldaşları tərəfindən ifşa olunur

## *Vaqif Hacıbəyli: “Saxta mühacir Qurban Məmmədov intriqabaz və şantajçıdır”*



Azərbaycan iqtidarına və cəmiyyətinə qarşı çirkin kampaniya aparan xarici ölkələədəki “siyasi mühacir”lərin əxlaqsızdığı, artıq onların əqidə yoldaşları tərəfindən ifşa olunmaqdadır. Özünü “mühacir siyasətçi” adlandıran və uzun illər intriqabaz fəaliyyəti ilə gündəmdə olan Qurban Məmədov yenidən ortaya çıxmaqla, şər və böhtanları ilə diqqət mərkəzinə çevrilməyə çalışır.

### “Qurban Məmmədov 4 iyun qiyamı ilə bağlı əsl həqiqətləri gizlədən qatı cinayətkardır”

“Əhrar” partiyasının sədri Vaqif Hacıbəyli son günlər sosial şəbəkələrdə Q.Məmmədovun 4 iyun qiyamı ilə bağlı əsl həqiqətləri gizlətməklə, həmin hadisələrdə qatı cinayət törətmiş qatilləri milli qəhrəmana çevirməklə, məşğul olduğunu bildirib: “Qurban Məmmədovun riyakar və intiriqabaz olmaqla yanaşı, həm də müxalifət və hakimiyyət daxilində intiriqa salmağa çalışmaqla, əslində, heç kimə xidmət etmir və öz şəxsi mənafeyini qoruyur. O, yalnız intirqa və şantajlardan nələrsə qazanmağa çalışır. Lakin bunu bəzən çox uğursuz şəkildə edir ki, nəticədə, özünü ifşa etmiş olur. Yəni Q.Məmmədov sözdə guya “ali məqsədlər” uğrunda mübarizə apardığını bəyan etsə də, əməli fəaliyyətində xırda intraqabazlıqdan o yana keçə bilmir”.

V.Hacıbəyli, həmçinin, Q.Məmmədovu “intiraqa ustası” adlandırıb: “Özü də bu onun “agent”, yaxud guya hakimiyyətdə kiminsə adamı və sair olması ilə bağlı deyil. Sadəcə, bu adamın xarakteri budur. Düzələn də deyil. Amma əziyyət çəkib gecə vaxtı bu qeydləri ona görə yazdım ki, bəlkə indiki yaşında ona qarşı qərəzli olmayan 40 illik tanışının fikirlərini nəzərə alıb, mövqeyində bəzi korrektələr etsin.”

Göründüyü kimi, Q.Məmmədovu artıq öz dostları belə ifşa etməklə, onun necə riyakar olduğunu sübuta yetirirlər.

Bütün bunlar Q.Məmmədov hələ çox əqidə silahdaşlarından çox sürprizlər alacaq. Çünki bu adam, artıq müxalifətin belə nifrət etdiyi piyada fiqura çevrilmişdir.

**Rəfiqə HÜSEYNOVA**

# Dünya ölkələrində cəza hüququnun vəziyyəti

***Ölüm cəzası bir çox ölkələrdə, o cümlədən, Azərbaycanda ləğv olunmuşdur. Yaponiyada da ölüm hökmü ləğv olunmuşdur. Yaponiyada bu, xalqın mentaliteti və psixologiyası ilə şərtlənən, ölkənin çoxəsrlik ənənələri və adətləri ilə ayrılmaz şəkildə bağlı olan mədəniyyətinin və psixologiyasının xüsusiyyətlərini aydınlaşdırmadan, bu ölkədə ölüm cəzasının mövcud olmasının səbəblərini başa düşmək çətindir. Yaponiyada ictimai həyatın tarixən formalaşmış atributlardan imtina etmək isə qəbul edilmir. Bu səbəbdən, Yaponiyada ölüm cəzasının saxlanılması xalqın mədəni və əxlaqi inkişaf səviyyəsi göstəricilərinin aşağı olmasının deyil, həyat ukladı tərəfindən qəbul olunmuş çoxəsrlik adət və ənənələrin mühafizəsinin təsdiqi sayılır.***

İ.Rəhimov yazır: "Yaponiya Avropa təsirindən ataş kimi ehtiyat edərək, əsrlərlə özünün unikallığını və özünəməxsusluğunu "tutub saxlamış" azsaylı ölkələrdən biridir. Bundan əlavə, Yaponiyada ölüm cəzasının mövcudluğunun xüsusiyyəti bu ölkədə Qərbin iqtisadi və demokratik prinsiplərinin qəbul edilməsinə baxmayaraq, əsasını ənənəvi icma və əxlaqi dəyərlər təşkil edən sosial nəzarətin spesifik milli formalarının hələ də saxlanılmasında ifadə olunur. Yaponiyada son 50 il ərzində cinayətkarlığın strukturunda qəsdən adamöldürmə cinayətlərinin 0,2%-i, zorakı cinayətlərin isə 1,5%-i aşmaması, məhz bununla izah olunur. BMT-nin illik icmallarının məlumatları yapon sisteminin cinayətkarlığa, xüsusən, ağır cinayətlər qrupuna təsirinin səmərəli olduğunu təsdiq edir."

Yaponlar indinin özündə də hüquq və psixologiyaları ilə avropalılardan fərqlənirlər, hər bir xalqın və millətin əxlaq anlayışına özünün qiyməti və tarixinin olmasını sanki unudaraq, bu sahədə özlərini daha inkişaf etmiş sayırlar. Bu, o millətlərdəndir ki, ölüm cəzasının ləğv edilməsi ilə bağlı Qərb cinayət qanunvericiliyini köçürməkdən imtina edir. V.Y.Kvaşis, N.A.Morozov, İ.B.Te yazmışlar: "Yaponiyaya gəlincə, o, həqiqətən, istisna təşkil edir, çünki ölkə Qərbin iqtisadi və demokratik təcrübəsini götürsə də, əsasını icma və mənəvi sərvətlər təşkil edən sosial nəzarətin spesifik formalarını itirməmişdir". Deyilənlərə yalnız onu əlavə etmək olar ki, yaponlar ilə avropalıların mentalitet və psixologiyasını müqayisə edərkən, etiraf etmək lazımdır ki, bunlar təkcə fərqli mədəniyyət və əxlaq deyildir, müxtəlif tarixi keçmişə və fəlsəfi tərbiyəyə malik fərqli sivilizasiyalardır. Borca sadiqlik, mərifətlilik, müdriklik, sakitlik, səbirlilik, inam, eyib hərəkətə görə utanc hissi - bütün bunlar əsas prinsipi "xalq qanunları bilməli deyildir, yalnız ona tabe olmalıdır" olan konfutsiçiliyin müddəalarıdır. Buradan isə aşağıdakı nəticəni çıxarmaq olar: "Gözlənilən cəzanın naməlumluğu onun dəqiq bilinməsindən daha çox cinayətdən çəkindirir".

Ədalət və əvəzçıxma anlayışları ilə bağlı konfutsiçiliyin ideyaları, şübhəsiz, Yaponiyada ölüm cəzasının əxlaqi mahiyyəti probleminin mühüm amilləri sayılır.

Eyni zamanda, samuray şərəfi prinsipini nəzərə almaq lazımdır ki, buna əsasən, yaponlar milli xarakterindən çıxış edərək, ölüm cəzasının saxlanılmasını tələb edirlər. V.Ovçinnikov "Sakura budağı" kitabında yazmışdır: "Yapon tarixinin bütün dövrləri ərzində insanlar "çiri" və ya şərəf borcu naminə özgələrin başlarını kəsmiş və qarınlarını cırmışlar. Samurayların xarakteri törətmək adəti indi yalnız kinofilmlərdə qorunub-saxlanmasına baxmayaraq, "çiri" anlayışı gizli olsa da, əvvəlkitək müasir yaponların əməllərində müşahidə olunur. Əgər ehtiram əlaməti olaraq, comərdliyin kökü Qədim Çin mənəviyyatına gedib çıxırsa, şərəf borcu nə Konfutsi, nə də Budda təlimləri ilə heç bir ümumiliyi olmayan sırf yapon anlayışıdır... Çiri - pisliyin və yaxşılığın abstrakt anlayışlarına deyil, lazım olan hallarda lazım olan hərəkətlərin törədilməsini tələb edən, insani münasibətlərin ciddi müəyyən olunmuş reqlamentinə əsaslanan şərəf borcudur". Beləliklə, Yaponiyada ölüm cəzasının ləğv edilməsi məsələsində Avropanın təsirinə qarşı, məhz konfutsiçilik fəlsəfəsi, həm Yaponlardan fərqli olaraq, bir sıra ölkələrdə ölüm cəzasının qalması milli ənənələrlə bağlı olmayıb, ölkənin kriminogen situasiyası, yəni qəsdən adam öldürmə cinayətlərinin vəziyyəti ilə şərtlənmişdir. Bu ölkələr əxlaqilik baxımından ölüm cəzasını inkar etsələr də, bu növ cəza tədbirlərinin cinayətkarlığa qarşı mübarizədə ən yüksək vasitə olmasına əmindirlər. Cinayətkarlığın artımı, cinayətlərin xarakteri, kütləvi xarakter daşıyan qəsdən adam öldürmə cinayətlərinin törədilməsinin yeni metodları, alət və vasitələri çoxlarını daha tez-tez qorxuyaratma vasitəsi kimi ölüm cəzasının saxlanılmasının məqsədəuyğunluğu və faydalılığı haqqında düşünməyə vadar edir. B.N.Çiçerin yazmışdır ki, əgər cəmiyyətin müdafiəsi üçün cinayətkarlarda qorxu yaratmaq tələb olunursa, ölüm cəzası bununla bağlı ən güclü təsir göstərir. Bu, hətta ömürlük azadlıqdan məhrumetmə cəzasına çox laqeyd baxan islahedilməz cinayətkarları saxlayan yeganə vasitədir. Cəmiyyət üçün xəstəliyə yoluxmuş üzvünün kəsilməsi faydalıdır. Əgər islaholunmaz cinayətkarlar varsa, onda onlardan birdəfəlik yaxa qurtarmaq yaxşıdır.

Qarşıya qoyulmuş məqsədə nail olmaq baxımından, ölüm cəzasının faydalılığı mübahisəli olsa da, etiraf etmək lazımdır ki, ölüm qorxusu cinayətkarlar üçün ciddi bir manədir. İnsanlar, hətta bu adi sağlam düşüncədən çıxış edərək, digər ən ağır cəzalardan daha çox, ölümdən qorxurlar. Məsələn, demokratik cəhətdən inkişaf etmiş və sosial rifah ölkəsi sayılan ABŞ kimi ölkədə bu cəza, nəinki ləğv olunmamış, hətta 2005-ci ildə yetkinlik yaşına çatmamış şəxsə tətbiq olunmuşdur.

Məlum olduğu kimi, minilliklərlə öz adət-ənənələrini, mədəniyyətlərini, dinlərini formalaşdırmış Çin, Yaponiya, İran, Avropa və sair ölkələrdən fərqli olaraq ABŞ-ın özünün qədim milli tarixi yoxdur. Avropadan Amerikaya köçənlər buraya ölüm cəzasının olduğu və xüsusi yer tutduğu cəza sistemini gətirmişlər. Ona görə də, bu ölkənin ilk müstəmləkə məntəqələrində edam cəzası qədimdən çox geniş yayılmış hadisə olmuşdur.

Müasir dövrdə ABŞ-da ölüm cəzası ağırlaşdırıcı hallarda qəsdən adamöldürmə cinayətlərinə görə nəzərdə tutulmuşdur. Ədəbiyyatlarda, o cümlədən, xarici ədəbiyyatlarda çox tez-tez bu cəzanın irqçi xarakteri, ölüm cəzasının tətbiqi zamanı irqi qeyri-bərabərliyə yol verildiyi qeyd olunur. Göstərilir ki, milli azlıqlar və ilk növbədə, qaradərili amerikalılar ağdərililərdən daha çox ölüm hökmünün çıxarılması risqinə məruz qalırlar. Həmçinin, qeyd edilir ki, ABŞ-ın orta qərb, qərb, şimal-qərb ştatlarında cənub ştatları ilə müqayisədə ölüm cəzası daha çox tətbiq olunur. Lakin ABŞ-da ölüm cəzasının qalmasının, məhz qaradərililərə tətbiq edilməsi səbəbi ilə izah etmək səhv olardı. Hərçənd ki, onlar ölkənin ağdərili əhalisi ilə müqayisədə, faiz etibarilə daha çox ağır zorakı cinayətlər törədirlər və bu da doğrudur ki, ölkənin cənub ştatlarının əhalinin çoxunu qaradərililər təşkil edir.

İ.Rəhimov yazır: "ABŞ-da ölüm cəzasının qalmasının daha çox cinayətkarlığın vəziyyəti ilə əlaqələndirmək düzgün olardı. Məlum olduğu kimi, bu ölkə cinayətlərin, xüsusən, zorakı cinayətlərin kifayət qədər yüksək səviyyəsi ilə fərqlənir. Ona görə də, təkcə əhali deyil, həmçinin, siyasətçilər bu cəzasız ölkədə cinayətkarlığın səviyyəsinin artmasına əmindirlər. Belə ki, 1975-ci ildə İ.Erlix ABŞ-da qəsdən adamöldürmə cinayətlərinin və edamların statistik məlumatların reqress (tənəzzül) təhlilini aparmış və belə bir nəticəyə gəlmişdir ki, hər ölüm cəzası çox yüksək səmərəliliyə malikdir və minimum olaraq, səkkiz potensial qatili cinayətdən çəkindirir.

Nəzərə almaq lazımdır ki, Amerikada ölüm cəzasına həmişə cəmiyyətin cinayətkarlığa adekvat və tam qanuni cavabı kimi baxılmışdır. C.Buşun 2004-cü ildə seçkiqabağı kampaniya gedişində söylədiyi bu fikirləri xatırlamaq kifayətdir: "Ölüm cəzası cinayətkarlığa qarşı müharibənin bir hissəsidir". Prezidentliyə namizəd cinayətkarlığa qarşı müharibə elan edərkən, yəqin ki, əhalinin ölüm cəzası ilə bağlı ictimai rəyini nəzərə almışdır və bu da seçkidə onun qələbəsində müəyyən rol oynamışdır."

Beləliklə, amerikalılar ölüm cəzasının saxlanılıb-saxlanılmaması sualına cavab verərkən, ilk növbədə, ölkədə cinayətkarlığın vəziyyəti, sonra bu cəzanın əxlaqiliyi haqqında düşünürlər.

Ölum cəzası institutu artıq çoxdan cinayət siyasəti hüdudundan çıxıb, dövlət siyasəti probleminə çevrilmişdir. Ona görə də, ölüm cəzası ilə bağlı qərarın qəbul edilməsi həmişə ölkədə real kriminogen situasiya, xalqın milli adət və ənənələri ilə, cəmiyyətin mənəvi vəziyyəti və şüur səviyyəsi ilə bağlı olmuşdur.

Məsələn, XVI-XVII əsrlərdə cinayət cəzasının rus sistemi Qərbin siyasi təsirini hiss etmişdir. Məhz I Pyotr Qərbdən yeni müəssisələr ilə birlikdə işgəncə və əzabvermənin hər cür mümkün yeni alətlərini götürmüşdür. Rusiyanın Avropa dövlətlərinə uyğun yeni həyat ukladını yaratmaq ideyası ilə fikirləşən I Pyotr öz fərmanlarında cinayətlərin xarakterinə az diqqət yetirmişdir. Onun üçün başlıcası qarşıya qoyulmuş məqsədə nail olmaq olmuşdur: itaət etməyəni qorxutmaq, vahimələndirmək və məhv etmək.

İmperatriçə Yelizaveta da cəzanın formalaşdırılmasında Qərbi Avropa yönümlü olmuşdur. Məhz o, ölüm cəzasını ləğv etmiş, hesab etmişdir ki, şallaq eyibli ölüm cəzası sayılır və o, yalnız ən ağır cinayətlərə görə tətbiq edilir. Almaniyada və Fransada olduğu kimi, çubuqla döymədən istifadə olunmuşdur.

İ.N.Maksimoviç 1853-cü ildə yazmışdır: "1753-cü ili biz təkcə ölüm cəzası tarixində deyil, ümumən, cinayət cəzası tarixində era kimi qəbul edirik. Çünki məhz bu dövrdən onlar həm cinayət cəzası anlayışı, həm də ədalətlilik anlayışı kimi düzgün və müvafiq əhəmiyyəti almağa başlamışlar". Məsələ burasındadır ki, ölüm cəzası ləğv olunmasa da, onun icra olunmasının dayandırılmasına baxmayaraq, həmin ildə imperatriçə Yelizaveta Petrovnanın fərmanı ilə ölüm cəzasını cinayətkarların aşkar şəkildə çubuqla döyülməsi və damğalanması cəzasından sonra birdəfəlik katorqa işlərinə ömürlük sürgünlə əvəz etmişdir. İ.N.Maksimoviç bununla bağlı qeyd etmişdir: "İmperatriçə Yelizaveta Petrovna ölüm cəzası ilə bağlı o zaman qüvvədə olan qərarı ləğv etməməklə, deməli, qanunun gücünü çox zəifləməməklə, bu cəzanın istifadəsinin az sayda və qeyri-adi hallar ilə məhdudlaşdırılması vasitələrini tapmağı bacarmışdır və kriminalist-nəzəriyyəçilər arasında ölüm cəzasının tətbiq olunub-olunmaması ilə bağlı yüz ildən artıq mövcud olan mübahisəni həll etmişdir".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Süni mayalanma ilə doğulan uşaqların həyatı təhlükədə!

Süni mayalanma ilə doğulan uşaqların digərlərinə nisbətən xərçəngə tutulma riski yüksəkdir. Publika.az xəbər verir ki, bu barədə məşhur JAMA tibb jurnalı yazıb. Alimlər uzun illər ərzində apardıqları araşdırma zamanı minlərlə uşağın nəticələrini incələyib.



Belə qənaətə gəliblər ki, süni mayalanma ilə doğulan uşaqlara ilk 10 ildə xəstəlik diaqnozu qoyulma halları digərlərinə görə 17 faiz daha çoxdur.

Minnesota Universitetinin araşdırması zamanı süni mayalanma ilə doğulan 276000 uşaqla normal üsulla doğulan 2.27 milyon uşaq müqayisə edilib. JAMA jurnalında yazılanlara görə, uşaqlıq dövrü xərçəngləri ilə süni mayalanma ilə doğulan uşaqlar arasında kiçik əlaqə olduğu müəyyən edilib. Təbii ki, aşkarlanan bu əlaqə ilə bağlı araşdırmalar davam etdiriləcək. Çünki bəzi alimlər süni mayalanma ilə xərçəng arasında hər hansı əlaqənin olmasını doğru hesab etmir. Qeyd edək ki, bu vaxta qədər süni mayalanma ilə 10 milyondan çox uşaq dünyaya gəlib

## ŞOK xəbərdarlıq: 1 milyarddan çox insan bu səbəbdən ölə bilər

İqlim dəyişikliyi və temperaturun artması səbəbiylə 2050-ci ilə qədər təxminən yarım milyard, 2080-ci ilə qədər isə bir milyarddan çox insanın ilin hər ayında ağcaqanadlardan qaynaqlanan xəstəliklərə tutulma riski var. Bu haqda ABŞ-ın "Public Library of Science" qəzetində dərc olunan araşdırmada deyilir.



Araşdırmaya görə, ağcaqanadların səbəb olduğu xəstəliklərin sayının artması müşahidə olunur. Bu növ xəstəliklərin daha çox Avropada yayılması, ABŞ, Mərkəzi Amerika, Şərqi Asiya, Şərqi Afrika və Kanadada da artacağı gözlənilir. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il təxminən bir milyon insan bu kimi xəstəliklər səbəbiylə həyatını itirir.

## "Beşiktaş"dan 21 yaşlı futbolçu üçün 17 milyon avro

"Beşiktaş" SSKA-nın futbolçusu Nikola Vlaşiçi transfer edə bilər. Qol.az-ın Rusiya mətbuatına istinadən yaydığı xəbərə görə, İstanbul klubu 21 yaşlı yarımmüdafiəçi ilə maraqlanır. Türkiyə təmsilçisinin Vlaşiç üçün 17 milyon avro ödəməyə hazır olduğu bildirilib. Qeyd edək ki, müqavilə ilə "Everton"a məxsus olan Vlaşiçi Rusiya klubu bu mövsümün sonuna kimi icarəyə götürüb.



## Ukrayna Rusiya ilə birbaşa uçuşları dayandırıb



Ukrayna Rusiya ilə aviauçuşları dayandırıb. SİA Ukrayna KİV-nə istinadən xəbər verir ki, müvafiq qərarı Daxili İşlər Nazirliyinin təklifi ilə hökumət qəbul edib. Qadağalar müntəzəm olmayan reyslərə şamil ediləcək. Amma BMT, ATƏT və Qırmızı Xaç Cəmiyyəti kimi beynəlxalq təşkilatlar üçün istisnalar olacaq.

## Karate millimiz Avropa çempionatını bir qızıl, bir gümüş və iki bürünc medalla başa vurub



***Karate üzrə Azərbaycan milli komandası İspaniyanın Qvadalaxara şəhərində keçirilən Avropa çempionatını bir qızıl, bir gümüş və iki bürünc medalla başa vurub. Azərbaycan Milli Karate Federasiyasından bildiriblər ki, parakarate yarışlarında gözdən əlil idmançılar kateqoriyasında Sahib Əhədov Avropa çempionu adını qazanıb. Fərdi kumite yarışlarında Rafael Ağayev (75 kq) gümüş, Asiman Qurbanlı (+84 kq) isə bürünc medallara sahib olublar. Millimizin aktivinə növbəti bürünc medalı Roman Heydərov (kata) yazdırıb.***

İdmançılarımızdan Nuranə Əliyeva (50 kq), İsmayıl Quliyev, Tural Balcanlı və Rövşən Əliyevdən ibarət kata komandamız bürünc medal uğrunda görüşdə qələbəni əldən verib. Rafiz Həsənov (67 kq) və Ayxan Mamayev (84 kq) təsəlliverici döyüşlərə qatılsalar da, mükafatçılar arasına düşə bilməyiblər.

Bu yarışda mərhələ adlayan idmançılarımız dünya reytinq cədvəli ilə yanaşı, II Avropa və XXXII Yay Olimpiya Oyunlarına lisenziyalar üçün reytinq xallarını artırıblar. "Minsk 2019"a vəsiqə qazanan karateçilərin siyahısı yaxın günlərdə açıqlanacaq. Böyüklərin 54-cü Avropa çempionatında 51 ölkədən 508 idmançı iştirak edib. Azərbaycan medal qazanan 26 ölkə arasında onuncu yeri tutub.

Qitə çempionatının sonunda təşkilatçı ölkə kimi İspaniya Karate Federasiyasının prezidenti Antonio Marquenyo və Avropa Karate Federasiyasının (EKF) birinci vitse-prezidenti Jiri Bocek, EKF-in bayrağını 2020-ci ildə 55-ci Avropa çempionatının keçiriləcəyi Azərbaycanın nümayəndə heyətinə təqdim ediblər. Azərbaycan Milli Karate Federasiyasının prezidenti və EKF-in icraiyyə komitəsinin üzvü Yaşar Bəşirov mərasimdə EKF-in bayrağını qəbul edib. Xatırladaq ki, növbəti qitə çempionatı gələn ilin martında Bakıda təşkil olunacaq.

## Bakıda ilk dəfə aerobika gimnastikası üzrə Avropa çempionatı təşkil olunacaq




Mayın 24-26-da Bakıda ilk dəfə aerobika gimnastikası üzrə Avropa çempionatı keçiriləcək. Azərbaycan Gimnastika Federasiyasının məlumatında deyilir ki, gimnastikanın müxtəlif növləri üzrə bir çox irimiqyaslı yarışlara ev sahibliyi edən Milli Gimnastika Arenası bu dəfə öz qapılarını Avropanın dinamik və enerjili gimnastika növünün təmsilçilərinə açacaq. Üç gün davam edəcək çempionatda aerobika gimnastları medallar uğrunda mübarizə apararaq, öz aralarında ən güclüləri müəyyənləşdirəcəklər.

Böyük və gənc gimnastlar fərdi qadın və kişi, qarışıq cütlük, üçlük, qrup, həmçinin aero dans, aero step (yalnız böyüklər) proqramında yarışacaqlar. Qaydalara əsasən, bir iştirakçı bu kateqoriyaların maksimum 3-də çıxış edə biləcək. Komanda hesabında qaliblər isə 5 ən yaxşı çıxışa görə müəyyən ediləcək. On birinci Avropa çempionatda hər bir kateqoriya üzrə təsnifat və final mərhələləri baş tutacaq.

## Useyn Bolt yenidən futbola qayıdıb

Yüngül atletika üzrə 8 qat olimpiya və 11 qat dünya çempionu Useyn Bolt yenidən futbola qayıdıb. Yamaykalı atlet Fransanın "Paris" klubuna transfer olunub. Bu barədə 2-ci liqa təmsilçisinin rəsmi Tvitter səhifəsi məlumat yayıb. Boltla 2 illik müqavilə imzalanıb. 32 yaşlı idmançı növbəti mövsümdən yeni komandasına qoşulacaq. Qeyd edək ki, Useyn Bolt bir müddət əvvəl Avstraliyanın "Sentra Kost Mariners" futbol klubunda çıxış edib. O, bu ilin yanvar ayında futboldan getdiyini açıqlamışdı.




**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**